4 dekabr 2024 №89-90 (2155) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri Qəzet 1991-ci ilin yanvarından çıxır

## Şəkidə teatr festivalı – altı il aradan sonra

### Festivallar şəhərində daha bir sənət bayramı bərpa olundu

Xəbər verdiyimiz kimi, 1-5 dekabr tarixlərində Şəki Dövlət Dram Teatrında IV Şəki Beynəlxalq Teatr Festivalı keçirilir.

Mədəniyyət Nazirliyi, Şəki Şəhər İcra Hakimiyyəti və Azərbaycan Teatr Xadimləri İttifaqının (ATXİ) birgə təşkilatçılığı ilə reallaşan festival Şəkidə milli peşəkar teatrın yaranmasının 145 illiyinə həsr olunub.

Festivalda Azərbaycan, Qazaxıstan, Özbəkistan və İrandan teatr kollektivləri iştirak edirlər. Ölkəmiz festivalda Azərbaycan Dövlət Akademik Musiqili Teatrı, Gəncə Dövlət Milli Dram Teatrı və Şəki Dövlət Dram Teatrı ilə təmsil olunur.

Xatırladaq ki, zəngin tarixi-mədəni irsi ilə yanaşı, son illər festivallar şəhəri kimi də tanınan Şəkidə beynəlxalq teatr festivalının əsası on il əvvəl qoyulub. Həmin vaxtadək ənənəvi "İpək Yolu" musiqi festivalına ev sahibliyi edən Şəki müxtəlif ölkələrdən teatr sənətçilərinə də qucaq açıb.









"Azərbaycan teatrı 2009–2019-cu illərdə" Dövlət Proqramının müvafiq bəndinə uyğun olaraq, 10–19 sentyabr 2014-cü ildə Mədəniyyət və Turizm Nazirliyi (2018-ci ilədək nazirlik belə adlanırdı – red.), Şəki Şəhər İcra Hakimiyyəti və Azərbaycan Teatr Xadimləri İttifaqının təşkilatçılığı ilə I Şəki Beynəlxalq Teatr Festivalı keçirilib. Festivalla bərabər, Azərbaycan milli peşəkar teatrının 142-ci mövsümünün açılışı (10 sentyabr) da Şəkidə təşkil edilib.

Festivalın iki ildən bir keçirilməsi qərara alınmışdı. Beləliklə, II Şəki Beynəlxalq Teatr Festivalı 15–24 sentyabr 2016-cı ildə, "Sərhədsiz teatr" devizi altında III Şəki Beynəlxalq Teatr Festivalı isə 12–19 may 2018-ci ildə təşkil edilib. Sonra festivala bir müddət ara verilib və bunda 2020-ci ildə başlanan məlum pandemiyanın da "rolu" olmamış deyil.

Nəhayət, altı il aradan sonra Şəkidə teatr sənəti bayramı bərpa olunub və sayca 4-cü festival 2024-cü ilin son ayına təsadüf edib.

davamı səh. 2-də

## İslam ölkələrinin gəncləri Şuşada bir araya gəliblər



2–4 dekabr tarixlərində Şuşa şəhərində 2024-cü il üçün "İslam Əməkdaşlıq Təşkilatının gənclər paytaxtı"nın bağlanış tədbirləri keçirilir.

Mədəniyyət Nazirliyi, Gənclər və İdman Nazirliyi və İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Gənclər Forumunun birgə təşkilatçılığı ilə reallaşan beynəlxalq proqramda İƏT-ə üzv və müşahidəçi ölkələrin 300-ə yaxın nümayəndəsi, habelə gənclər və könüllülər iştirak edirlər.

Bu çərçivədə Mədəniyyət Nazirliyinin təşkil etdiyi "Yaradıcılıq marafonu" İslam ölkələrindən olan gənc istedadları bir araya gətirib. Layihə müxtəlif yaradıcı sahələrdə birgə əməkdaşlıq və innovativ məhsulların yaradılmasını təşviq edən platforma rolunu oynayır. "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nı rəhbər tutaraq təqdim olunan layihənin əsas məqsədi gənclərdə innovativ və yaradıcı yanaşma tərzini formalaşdırmaqdır.

Marafonun əsas istiqamətləri animasiya, dəb, film və dizayn olaraq müəyyən edilib. Marafonda təcrübəli mentorların rəhbərliyi ilə beynəlxalq və yerli iştirakçılardan ibarət komandalar 24 saat ərzində öz məhsullarını hazırlayıb dekabrın 3-də münsiflər heyəti qarşısında təqdim ediblər. Qalib komandalar təltif olunacaqlar.

"Şuşa yaradıcılıq emalatxanası" layihəsi çərçivəsində isə bəstəkar-pianoçu Pikə Axundova Azərbaycan musiqisi ilə bağlı təqdimat edib.

"Gənclər paytaxtı" proqramı çərçivəsində Şuşa şəhərində "İslam Ölkələrinin Gənc Alimlərinin Forumu" da keçirilib. Forumda çıxış edən AMEA-nın vitse-prezidenti akademik Dilqəm Tağıyev diqqətə çatdırıb ki, Azərbaycanın 51 universitetində 320 mindən çox tələbə təhsil alır.

Qeyd edək ki, 2023-cü il noyabrın 10-da Türkiyənin İstanbul şəhərində keçirilmiş İƏT Gənclər Forumu İcraiyyə Şurasının 11-ci iclasında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri yekdilliklə 2024-cü il üçün İƏT-in "Gənclər paytaxtı" seçilib.

Prezident İlham Əliyev 2024-cü il 17 aprel tarixində "Şuşa şəhərinin 2024-cü il üçün "İslam Əməkdaşlıq Təşkilatının gənclər paytaxtı" seçilməsi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb.

Şuşada İƏT-in "Gənclər paytaxtı" proqramına dekabrın 4-də yekun vurulacaq.

Xatırladaq ki, Şuşa bu il eyni zamanda "İslam mədəniyyətinin paytaxtı" missiyasını da yerinə yetirir.

## Kitablarımız bu dəfə Ankarada sərgilənir

### Azərbaycan sərginin "fəxri qonaq ölkə"sidir




Xəbər verdiyimiz kimi, 29 noyabr – 8 dekabr tarixlərində Ankarada XXI Kitab Sərgisi keçirilir. Azərbaycanın "fəxri qonaq ölkə" olduğu sərgidə Mədəniyyət Nazirliyinin dəstəyi ilə Ankaradakı Azərbaycan Mədəniyyət Mərkəzi (AMM) tərəfindən stendimiz qurulub.

Təşkilat komitəsi Azərbaycanda Atatürk Mərkəzinin direktoru akademik Nizami Cəfərovu serginin "beynəlxalq fəxri qonağ"ı elan edib.

Açılış mərasimi AMM-in rəqs qrupunun çıxışı ilə başlayıb.

Mərasimdə Türkiyə mədəniyyət və turizm nazirinin müavini Batuhan Mumcu, Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov, akademik Nizami Cəfərov çıxış ediblər.

Rəşad Məmmədov stendimizdə nümayiş olunan nəşrlərin Azərbaycanın zəngin mədəniyyəti, tarixi və bu günü haqqında qardaş ölkə ictimaiyyətinin məlumatlandırılmasına mühüm töhfə verəcəyindən əminliyi bildirib.

Nizami Cəfərov türk xalqlarının irsinin qədim və zənginliyinə diqqət çəkərək türklərin bütün dövrlərdə xüsusi mədəni çoxşaxəliliyə malik olduğunu qeyd edib. Alim türkiyəli uşaq və gənclərin kitaba marağından məmnunluğunu ifadə edib: "Sevindirici haldır ki, bugünkü sərgini ziyarət edənlərin əksəriyyəti uşaq və yeniyetmələrdir".

Batuhan Mumcu kitab sərgisində Azərbaycanın "fəxri qonaq ölkə" olmasından məmnunluğunu bildirib. O, gənclər arasında mütaliənin kütləviləşməsinə çağırış edib: "Hər bir cəmiyyət üçün uşağa kitabı və biliyi sevməyi, qiymətləndirməyi öyrətmək xüsusilə vacibdir".

Açılış mərasimindən sonra iştirakçılar sərgi məkanında Azərbaycan stendi ilə tanış olublar.

Qeyd edək ki, Azərbaycan 2-10 noyabr tarixlərində keçirilən 41-ci İstanbul Beynəlxalq Kitab Sərgisinin də "fəxri qonaq ölkə"si idi.

davamı səh. 3-də

## "CulTech İnkubasiya" proqramına qəbul davam edir

Mədəniyyət Nazirliyi və Mədəni və Yaradıcı Sənayelərin İnkişaf Mərkəzinin dəstəyi ilə təşkil olunan "CulTech İnkubasiya" proqramı ölkəmizin yaradıcı gənclərinə və startap sahiblərinə öz layihələrini inkişaf etdirmək, həmçinin qlobal bazara çıxarmaq üçün unikal bir platforma təqdim edir.

Proqram ölkəmizdə yaradıcı sənayelərin inkişafını dəstəkləyərək regionun ən nüfuzlu innovasiya platformalarından birinə çevrilməyi hədəfləyir.

səh. 2

## "Əliqulu bu gün evlənir"

### Məşhur komediya səhnəyə qayıdır



Azərbaycan Dövlət Akademik Musiqili Teatrında yazıçı-dramaturq Sabit Rəhmanın uzun illər səhnələrdə oynanılmış "Əliqulu evlənir" pyesinə yeni quruluş verilib.

Xalq artisti İlham Namiq Kamalın librettosu və quruluşunda hazırlanan "Əliqulu bu gün evlənir" komediyasının premyerası dekabrın 19-da olacaq.

Səhnə əsərinin musiqi müəllifi mərhum bəstəkar, Əməkdar incəsənət xadimi Oqtay Rəcəbov, musiqi mətnlərinin müəllifi Əməkdar incəsənət xadimi, şair Baba Vəziroğludur.

Tamaşanın quruluşçu dirijoru Əməkdar incəsənət xadimi Fəxrəddin Atayev, xormeysteri Əməkdar artist Vaqif Məstanov, quruluşçu baletmeysteri Əməkdar artist Nigar Şahmuradova, quruluşçu rəssamı Əməkdar rəssam Nabat Səmədova, geyim üzrə rəssamı Nübar Hüseynova, konsertmeysteri Fidan Əliyevadır.

Baş rolu İlham Namiq Kamal oynayır. Tamaşada Əməkdar artistlər Əkbər Əlizadə, İqrar Salamov, Prezident mükafatçısı Səmədzadə Xasiyev, aktyorlar Zemfira Əbdülsəmədova, Rəsmiyyə Nurməmmədova, Gülçöhrə Abdullayeva, Əliməmməd Novruzov, Gülnarə Əzizova, Ruslan Mürsəlov, Böyükxanım Məmmədova, Mehriban Rəcəbova, Əzizəxanım Kazımova, həmçinin xor və balet artistləri iştirak edirlər.

## "Əllərin sehri" – yaradıcılıq müsabiqəsinin yekun sərgisi

Xətai Sənət Mərkəzində "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində elan olunmuş "Əllərin sehri" adlı yaradıcılıq müsabiqəsi başa çatıb. Noyabrın 28-də müsabiqənin yekun sergisi açılıb.



Müsabiqə Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi, AzTV, Xətai Rayon İcra Hakimiyyəti, Azərbaycan Rəssamlıq Akademiyasının dəstəyi, Rəssamlar İttifaqı, Dövlət Rəsm Qalereyası, Xətai Uşaq Sənəti Qalereyası və Xətai Sənət Mərkəzinin təşkilatçılığı ilə keçirilib. Müsabiqənin məqsədi heykəltaraşlıq sahəsində fəaliyyəti olan gənclərin yaradıcılıq ruhunun yüksəldilməsi və asudə vaxtlarının səmərəli təşkilidir.

Tədbirdə Azərbaycan Dövlət Rəsm Qalereyasının direktor müavini Gülşən Qədirli, Azərbaycan Rəssamlar İttifaqının sədr müavini Xalq rəssamı Ağaəli İbrahimov, Xalq rəssamı, heykəltaraş Xanlar Əhmədov, xalçaçı rəssam Tahir Məcid, Xətai Sənət Mərkəzinin direktoru Zahid Əvəzov çıxış edərək layihənin əhəmiyyətini vurğulayıb, müsabiqə haqqında fikirlərini bölüşüblər.

Qeyd olunub ki, müsabiqəyə ölkəmizin müxtəlif bölgələrindən 300-ə qədər uşaq, yeniyetmə və gənc, həmçinin bir neçə yuxarı yaş qrupunun nümayəndəsi fərqli materiallardan hazırlanmış heykəltaraşlıq nümunəsi təqdim edib. Bu əl işləri sırasından 140 müəllifin 160-a yaxın əsəri sərgi üçün seçilib.

Sonra sərgi ilə tanışlıq olub.

Sərgidə fəal iştirak edən tədris mərkəzlərinə təşəkkürnamə, əsəri sərgilənən iştirakçılara isə sertifikatlar təqdim olunub.



### Resurslar və mədəniyyət: arxeologiyadan yeni texnologiyaya

səh. 3



### Vyanada Füzulinin 530 illiyinə həsr olunan tədbir

səh. 8

№89-90 (2155)
4 dekabr 2024
www.medeniyyet.az

# Prezident yeni səfirlərin etimadnamələrini qəbul edib

## Yəmən, Mavritaniya və El-Salvadordan diplomatik elçilər gəlib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 3-də Yəmən Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Məhəmməd Saleh Əhməd Turiqin etimadnaməsini qəbul edib.

Prezident İlham Əliyev səfirlə söhbət edib.

Dövlətimizin başçısı COP29 zamanı Yəmənin vitse-prezidenti ilə görüşünü xatırladaraq, bunun əlaqələrimizin tarixində bu səviyyədə ilk görüş olduğunu qeyd edib. Prezident beynəlxalq müstəvidə qarşılıqlı dəstəyin davam etdirilməsinin, iqtisadi sahədə, o cümlədən ticarət, sərmayə qoyuluşu və digər istiqamətlərdə imkanların araşdırılmasının zəruriliyini bildirib.

Səfir Yəmən Prezident Şurasının sədri Rəşad Məhəmməd əl-Aliminin salamlarını Prezident İlham Əliyevə, həmçinin Yəmən xalqının salamlarını Azərbaycan xalqına çatdırıb. Dövlətimizin başçısı onun da salamlarını Yəmən rəhbərinə çatdırmağı xahiş edib.

Səfir COP29-un çox yaxşı səviyyədə təşkili ilə bağlı təbriklərini ifadə edərək vurğulayıb ki, bu tədbir dövlətimizin başçısının müdrik rəhbərliyini bütün dünyaya göstərib, COP29-da iştirak edənlər Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın gücünün, qüdrətinin bir daha şahidi olublar.

Məhəmməd Saleh Əhməd Turiq Azərbaycan ərazilərinin işğaldan azad edilməsi münasibətilə Prezident İlham Əliyevi təbrik edərək, bu yaxınlarda Qarabağa səfərini məmnunluqla xatırlayıb və bundan şərəf duyduğunu deyib. Səfir dövlətimizin başçısının rəhbərliyi ilə orada aparılan bərpa və quruculuq işlərinin böyük heyranlıq doğurduğunu vurğulayıb.

Diplomat iki ölkə arasında əlaqələrin möhkəmləndirilməsi ilə bağlı səylərini əsirgəməyəcəyini bildirib. Səfir Yəmənin iqtisadi sahədə də Azərbaycanla əməkdaşlıq etməkdə maraqlı olduğunu və bununla bağlı ölkəsinin iş adamlarının Azərbaycana səfərinin təşkilinin önəmini qeyd edib.

Hələ sovet dövründə Azərbaycanda Yəməndən çoxsaylı tələbənin təhsil aldığını və həmin mütəxəssislərin müxtəlif sahələrdə Yəmənin inkişafına töhfə verdiklərini deyən səfir yəmənli tələbələrin ölkəmizdə təhsil alması ənənələrinin davam etdirilməsinin vacibliyinə toxunub.

Söhbət zamanı Azərbaycanın və Yəmənin beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığı qeyd olunub, iqtisadiyyat, ticarət, təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə işbirliyi imkanlarının araşdırılmasının vacibliyi bildirilib.

***

Prezident İlham Əliyev dekabrın 3-də Mavritaniya İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Sid Əhməd əl-Bekaye Hamadinin və El-Salvador Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Enrike Haime Kalderonun etimadnamələrini də qəbul edib.

# Bakalavriat və magistratura üzrə mədəniyyət ixtisasları hansılardır?

Ali təhsilin bakalavriat və magistratura səviyyələri üzrə ixtisasların (proqramların) təsnifatları yenidən təsdiqlənib.

Baş nazir Əli Əsədov 2 dekabr 2024-cü il tarixində bununla bağlı Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarını imzalayıb.

Eyni zamanda bakalavriat səviyyəsi üzrə ixtisasların (proqramların) və magistratura səviyyəsi üzrə bəzi ixtisasların (ixtisaslaşmaların) təsnifatları ilə bağlı 2009-cu il və 2011-ci ildə verilmiş müvafiq qərarlar ləğv edilib.

Ali təhsilin bakalavriat və magistratura səviyyələri üzrə yeni təsnifatlarında "Mədəniyyət ixtisasları qrupu"na bu ixtisaslar daxildir (əlifba sırası üzrə): aktyor sənəti; bəstəkarlıq; dekorativ-tətbiqi sənət; dirijorluq; dizayn; ədəbi yaradıcılıq və ekran dramaturgiyası; heykəltaraşlıq; xoreoqrafiya sənəti; instrumental ifaçılıq; qrafika; musiqişünaslıq; muzey, arxiv işi və abidələrin qorunması; operator sənəti; populyar musiqi və caz ifaçılığı; rejissorluq; rəngkarlıq; sənətşünaslıq; vokal sənəti.

# "CulTech İnkubasiya" proqramına qəbul davam edir

Mədəniyyət Nazirliyi və Mədəni və Yaradıcı Sənayelərin İnkişaf Mərkəzinin dəstəyi ilə təşkil olunan "CulTech İnkubasiya" proqramı ölkəmizin yaradıcı gənclərinə və startap sahiblərinə öz layihələrini inkişaf etdirmək, həmçinin qlobal bazara çıxarmaq üçün unikal bir platforma təqdim edir.




"CulTech" mədəniyyət və texnologiyanın qovşağında yaradıcı və innovativ layihələri dəstəkləmək məqsədilə formalaşdırılmış bir inkubasiya proqramıdır. Burada həm mövcud startap sahibləri, həm də yeni ideya üzərində çalışan şəxslər öz layihələrini beynəlxalq səviyyəyə çıxarmaq üçün lazım olan bütün dəstəyi əldə edirlər.

Proqrama qəbul olanlar beynəlxalq tədbirlərdə iştirak edərək layihələrini tanıtmaq, təcrübə əldə etmək, öz sahəsi üzrə ən yaxşı mentorlardan dəyərli məsləhətlər almaq, habelə beynəlxalq investorlarla tanışlıq və müxtəlif ölkələrdən mütəxəssislərlə əməkdaşlıq imkanı əldə edə bilərlər.

Hər bir startap öncədən seçilmiş Avropa və ya Asiya ölkələrindən birinə səfər edərək oradakı ekosistemlə yaxından tanış olmaq və investisiya ehtimallarını dəyərləndirmək şansı əldə edəcək.

"CulTech İnkubasiya" proqramı yalnız layihələrin inkişafına deyil, həm də Azərbaycanın mədəniyyət sektorunun yenilikçi təşəbbüslərlə zənginləşməsinə töhfə verir.

Proqram ölkəmizdə yaradıcı sənayelərin inkişafını dəstəkləyərək regionun ən nüfuzlu innovasiya platformalarından birinə çevrilməyi hədəfləyir.

Yenilikçi ideyaya malik hər bir şəxs, komanda, startap sahibi və ya layihə rəhbəri bu proqramda iştirak edə bilər. Yaradıcılıq, yenilikçi baxış bucağı və layihəni həyata keçirmək həvəsi kifayətdir.

# MKS-lərdə KOHA sisteminin tətbiqi ilə bağlı növbəti təlim

Azərbaycan Milli Kitabxanası tərəfindən noyabrın 25-dən dekabrın 3-dək Mədəniyyət Nazirliyinin tabeliyində olan 20 şəhər və rayonun Mərkəzləşdirilmiş Kitabxana Sistemində (MKS) KOHA Avtomatlaşdırılmış Kitabxana-İdarəetmə Sisteminin tətbiqinin təkmilləşdirilməsi məqsədilə təlimlər keçirilib.



Kitabxanadan bildirilib ki, Gəncə, Samux, Lənkəran, Masallı, Ağsu, İsmayıllı, Bərdə, Tərtər, Şəmkir, Tovuz, Qusar, Siyəzən, Ucar, Zərdab, Saatlı, Sabirabad, Qəbələ, Oğuz, Şirvan və Salyan MKS-lərində sözügedən sistem ilə iş prosesinin həyata keçirilməsi üçün lazım olan mövcud avadanlıqların texniki göstəriciləri nəzərdən keçirilib.

Bundan əlavə, əməliyyatlar zamanı yaranan problemlər müzakirə edilib, onların aradan qaldırılması üzrə müvafiq tövsiyələr verilib. Ehtiyac olan kitabxanalarda əməkdaşlar sistemin modulları üzrə təkrar təlimatlandırılıb.

# Şəkidə teatr festivalı – altı il aradan sonra

## Festivallar şəhərində daha bir sənət bayramı bərpa olundu

*əvvəli səh. 1-də*

IV Şəki Beynəlxalq Teatr Festivalının açılış mərasimində təşkilatçı qurumların rəsmiləri, tanınmış teatr və incəsənət xadimləri, şəkili teatrsevərlər iştirak ediblər.

Açılış mərasimindən əvvəl Ümummilli lider Heydər Əliyevin Şəki şəhərindəki abidəsi ziyarət olunub.

Sonra iştirakçılar festival məkanında – Şəki Dövlət Dram Teatrının foyesində Azərbaycan teatrının keçdiyi tarixi yoldan bəhs edən sərgi ilə tanış olublar.

Mərasim Azərbaycanın Dövlət Himninin səslənməsi ilə başlayıb. Şəki teatrının fəaliyyətindən bəhs edən film nümayiş etdirilib.

Şəkinin icra başçısı Elxan Usubov çıxış edərək iştirakçıları salamlayıb, festivalın şəhərin mədəni həyatı üçün çox vacib olduğunu vurğulayıb. Qeyd olunub ki, Azərbaycanın qədim mədəniyyət və sənət mərkəzlərindən biri olan Şəki şəhəri beynəlxalq festivalların, tədbirlərin keçirilməsi üçün unikal məkandır. 2017-ci ildə Şəki şəhəri UNESCO-nun Yaradıcı Şəhərlər Şəbəkəsinə, 2019-cu ildə Xan sarayı ilə birgə Şəkinin tarixi mərkəzi UNESCO-nun Dünya İrsi Siyahısına və ICESCO-nun İslam İrsi Siyahısına daxil edilib. Şəki Dünya Tarixi Şəhərlər Liqasının da üzvüdür.

Əməkdar incəsənət xadimi, teatrşünas, professor İlham Rəhimli çıxışında 145 illik tarixi olan Şəki teatrının keçdiyi yola qısa nəzər salıb, kollektivin qazandığı uğurlardan danışıb.

### Şəki teatrının "Heç nədən hay-küy"ü

Festivalın ilk günü ev sahibləri səhnəyə çıxıblar. Şəki Dövlət Dram Teatrının Vilyam Şekspirin "Heç nədən hay-küy" romantik komediyası əsasında hazırladığı tamaşa nümayiş olunub.



Səhnə əsərinin quruluş müəllifi teatrın baş rejissoru Əməkdar incəsənət xadimi Mirbala Səlimli, quruluşçu rəssamı Sahib Əhmədov, geyim üzrə rəssamı Dilşad Şirinovadır. Rolları Əməkdar artistlər Xanlar Həşimzadə, Əbülfət Salahov, Rəhim Qocayev, aktyorlar Xəyal Salahov, Arzu Mustafayeva, Aytac İsmayılzadə, Rəşid Mirizadə, Pərviz İsmayılov, Çingiz Novruzəliyev və digərləri ifa ediblər.

Orta əsrlərdə İtaliyada zadəgan ailələr, əyanlar və onların başına gələn romantik hadisələrdən bəhs edən tamaşa maraqla qarşılanıb.

Nümayişdən sonra teatrın yaradıcı kollektivinə xatirə hədiyyələri təqdim olunub.

### Bakıdan gələn "Molla Nəsrəddinin beş arvadı"

Festival çərçivəsində dekabrın 2-də Azərbaycan Dövlət Akademik Musiqili Teatrı özbək yazıçısı İbrahim Sadıqovun "Molla Nəsrəddinin beş arvadı" ikihissəli komediyasını təqdim edib.

Əməkdar incəsənət xadimi Əsgər Əsgərovun quruluş verdiyi tamaşada rolları Əməkdar artistlər Əzizağa Əzizov, İqrar Salamov, Prezident mükafatçısı Mehriban Zaliyeva, aktyorlar Gülnarə Abdullayeva, Ülviyyə Əliyeva, Gülcahan Salamova, Gülnarə Əzizova, Şaban Cəfərov, Əliməmməd Novruzov, Fərid Rzayev, Cəbrayıl Cəbrayılov oynayıblar.

Səhnə əsərinin rəssamı Əməkdar rəssam Nabat Səmədova, quruluşçu baletmeysterləri Əməkdar artistlər Zakir və Yelena Ağayevlər, rejissor assistenti Tamilla Aslanovadır.



### Qazaxıstan kollektivinin "Göytürklər"i

Dekabrın 3-də səhnə Qazaxıstandan gələn qonaqlara verilib. Atındağı Vilayəti Qazax Musiqili Dram Teatrının təqdimatında Azərbaycanın Xalq şairi, dramaturq Bəxtiyar Vahabzadənin "Özümüzü kəsən qılınc" dramı əsasında hazırlanan "Göytürklər" tamaşası nümayiş olunub.

Əsər qədim türk xalqlarının tarixi keçmişini, zəngin dövlətçilik ənənələrini özündə əks etdirir. Burada türklərin minillik tarixi keçmişindən söz açılsa da, şair minilliklər əvvəl baş verən hadisələrə yeni təfəkkürlə yanaşıb, başımıza gələn faciələri və onları doğuran səbəbləri açıb göstərib...

Qazax rejissor Sultan Srailovun quruluş verdiyi səhnə əsəri maraqla qarşılanıb.

***

IV Şəki Beynəlxalq Teatr Festivalı çərçivəsində sənətsevərlər dekabrın 4-də Səmərqənd Musiqili Dram Teatrının (Özbəkistan) Əlişir Nəvainin əsəri əsasında səhnələşdirdiyi "Eşq vadisi" (rejissor Şuxrat Sanaqulov) tamaşasını izləyəcəklər.

Festivalın son günündə – dekabrın 5-də isə iki tamaşanın nümayişi nəzərdə tutulur. Saat 12:00-da İrandan gəlmiş "Muğan Hünər" Teatrının Arif Məhtabın əsəri əsasında hazırladığı "İçimdə bir Araz addımlayır" (rejissor Qərib Mənuçehri) tamaşası nümayiş olunacaq.

Beynəlxalq festivala həmin gün saat 17:00-da Gəncə Dövlət Milli Dram Teatrının "Toros canavarı" tamaşası ilə yekun vurulacaq. Tanınmış türkiyəli yazıçı Əziz Nesinin əsərinə Kubilay Erdedlikara quruluş verib.

# Azərbaycanda 6-cı bələdiyyə seçkisi

## 685 bələdiyyə üzrə 8071 üzv seçilməlidir

Azərbaycan Respublikasında növbəti bələdiyyə seçkiləri 2025-ci il 29 yanvar tarixinə təyin olunub. Bu barədə qərar Mərkəzi Seçki Komissiyasının (MSK) noyabrın 27-də keçirilən iclasında qəbul edilib.

Qeyd edək ki, bu, ölkəmizdə sayca 6-cı bələdiyyə seçkisi olacaq.

Azərbaycanda ilk bələdiyyə seçkiləri 12 dekabr 1999-cu ildə keçirilib. Seçkilər nəticəsində ölkə üzrə 2660-dək bələdiyyə (21 mindən çox bələdiyyə üzvü) formalaşmışdı. Ən böyük bələdiyyənin 19, ən kiçik bələdiyyənin 5 üzvü vardı.

Sonrakı bir neçə ildə yerlərdə ərazi-inzibati bölgüsü üzrə aparılmış dəyişikliklər nəticəsində bələdiyyələrin sayı artmış və 17 dekabr 2004-cü ildə keçirilən növbəti seçkilər ölkə üzrə 2730 bələdiyyəni (ümumilikdə 21600-dən çox bələdiyyə üzvü) əhatə etmişdi.

Lakin bundan sonra, xüsusilə də kiçik bələdiyyələrin fəaliyyətinin səmərəsiz olması nəzərə alınaraq, bələdiyyələrin tədricən birləşdirilməsi prosesi başlandı.

2009, 2014 və 2019-cu illərdə keçirilən seçkilərdə formalaşan bələdiyyə sayında bu azalma tendensiyası özünü göstərib.

18 oktyabr 2024-cü ildə qəbul edilən "Azərbaycan Respublikasında bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında" Qanuna əsasən, ölkə üzrə mövcud bələdiyyələrin sayı 1606-dan 685-ə düşüb.

29 yanvarda 685 bələdiyyə üzrə ümumilikdə 8071 bələdiyyə üzvü seçilməlidir.

Onu da qeyd edək ki, Azərbaycanın işğaldan azad edilmiş əraziləri üzrə bələdiyyələr hələ yaradılmayıb və növbəti seçkilər də həmin əraziləri əhatə etməyəcək. Seçkilər 118 seçki dairəsində keçiriləcək.

Yeri gəlmişkən, bələdiyyələr 5 il müddətinə seçilir və bundan öncəki seçkilər bu müddətin tamamında və bir qayda olaraq, dekabr ayında keçirilib. Budəfəki seçkilər həmin müddətdən bir ay sonraya təsadüf edəcək və beləliklə, 2019-cu ilin dekabrında seçilən bələdiyyələr bir ay artıq fəaliyyət göstərmiş olacaqlar.

**Vüqar Orxan**

# Əlilliyi olanların yaradıcılıq sərgi-müsabiqəsi

Əlilliyi olan şəxslərin XII Ümumrespublika yaradıcılıq sərgi-müsabiqəsinə yekun vurulub. 3 dekabr – Beynəlxalq Əlillər Günü ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin təşkil etdiyi müsabiqənin qalibləri Azərbaycan Rəssamlıq Akademiyasının muzey-sərgi kompleksində təşkil olunan mərasimdə təltif olunublar.



Mükafatları qaliblərə əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Hidayət Abdullayev, Azərbaycan Rəssamlıq Akademiyasının prorektoru Xalq rəssamı Fuad Salayev, münsiflər heyətinin sədri, Əməkdar rəssam Məmmədhüseyn Hüseynov və başqaları təqdim ediblər.

Qeyd olunub ki, ənənə halını alan ümumrespublika səviyyəli yaradıcılıq sərgi-müsabiqəsinin təşkili əlilliyi olan şəxslərə diqqət və qayğının daha bir nümunəsi olmaqla, onların yaradıcılıq potensialının dəstəklənməsi və cəmiyyətə tanıdılması məqsədi daşıyır.

Sərgi-müsabiqəyə Bakı və bölgələr üzrə 195 nəfərin ümumilikdə 2500-dək əl işi təqdim edilib. Onların arasında rəsm, bədii oyma, bədii tikmə əsərləri, xalça və xalçaçılıq məmulatları, toxuma, metal və daş üzərində işlər və s. var.

Yaradıcılıq nümunələri münsiflər heyəti tərəfindən 11 nominasiya üzrə qiymətləndirilib. Hər nominasiyada I, II, III yerləri tutan iştirakçılara – ümumilikdə 33 nəfərə diplom və mükafatlar, sərgi-müsabiqənin digər iştirakçılarına həvəsləndirici mükafatlar və təşəkkürnamələr təqdim olunub.

Əl işlərinin satış-sərgisi dekabrın 6-dək Azərbaycan Rəssamlıq Akademiyasının muzey-sərgi kompleksində davam edəcək.

# Kitablarımız bu dəfə Ankarada sərgilənir




## Azərbaycan sərginin "fəxri qonaq ölkə"sidir

əvvəli səh. 1-də

### Türk dünyasının qürur mənbəyi, dünya poeziyasının incisi

Noyabrın 30-da XXI Ankara Kitab Sərgisi çərçivəsində "Nizami Gəncəvi: Türk dünyasının qürur mənbəyi, dünya poeziyasının incisi" mövzusunda beynəlxalq konfrans, habelə şairin "İskəndərnamə" poemasının orijinaldan türkcəyə tərcüməsinin təqdimatı olub.

Tədbir Azərbaycan Mədəniyyət Nazirliyi və Ankaradakı AMM tərəfindən təşkil olunub.

AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşı, filologiya elmləri doktoru Təhminə Bədəlova çıxışında Nizaminin əsərlərinin zamanın sınağından keçdiyini və haqlı olaraq dünya poeziyasının şah əsərləri sırasına daxil edildiyini vurğulayıb: "Nizaminin ədəbi irsi geniş və çoxşaxəlidir. Şairin riyaziyyat, astronomiya, fəlsəfə, tarix, coğrafiya, filologiya, memarlıq kimi fundamental elmlərdə dərin biliyini nümayiş etdirən "Xəmsə"si mütəfəkkir müəllifə dünya şöhrəti gətirib".

Digər çıxış edənlər də Nizami yaradıcılığının ideya-bədii xüsusiyyətlərindən danışıb. "İskəndərnamə"nin türkcə işıq üzü görməsini yüksək qiymətləndirib, "Xəmsə"yə daxil olan digər əsərlərin də türk dilinə tərcümə edilərək qardaş ölkədə çap olunacağını bildiriblər.

Qeyd edək ki, Ərzurum Atatürk Universiteti Fars dili və ədəbiyyatı bölümünün müdiri professor Nimet Yıldırım tərəfindən tərcümə olunan "İskəndərnamə" poeması Türkiyədə 2022-ci ildə çapdan çıxıb.

### Nizami irsinin öyrənilməsi və təbliğində əməkdaşlıq

Sərgi çərçivəsində dekabrın 1-də dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsi və təbliğinə dair memorandum imzalanıb. Sənədi ölkəmizin Ankaradakı AMM-in direktoru Samir Abbasov və Nizami Gəncəvi Mərkəzinin (Gəncə) direktoru Əlimuxtar Muxtarov imzalayıblar.

Samir Abbasov qeyd edib ki, memoranduma uyğun olaraq, Türkiyədə Nizami Gəncəvi irsinin tədqiqi və geniş ictimaiyyətə çatdırılması üçün layihələr həyata keçiriləcək. Eyni zamanda Azərbaycan ədəbiyyatında Nizami Gəncəvinin obrazı və türk mədəniyyətində Mövlanə Cəlaləddin Ruminin yaradıcılığına dair birgə monoqrafiyaların hazırlanmasına dəstək verilməsi nəzərdə tutulub. Türkiyə jurnallarında Nizami irsi mövzusunda məqalələrin, eləcə də Azərbaycan nəşrlərində, o cümlədən Gəncədə nəşr olunan "Nizamişünaslıq" jurnalında türk alimlərinin məqalələrinin dərc edilməsinə xüsusi diqqət yetiriləcək.

Nizami Gəncəvi Mərkəzinin direktoru Əlimuxtar Muxtarov "Nizamişünaslıq" jurnalının bir nüsxəsini AMM-in rəhbərliyinə təqdim edib.

### Ankarada "Füzulinin divanı"nın təqdimatı

Kitab sərgisində dekabrın 1-də "Füzulinin divanı" toplusunun təqdimatı da olub.




AMM-in direktoru Samir Abbasov böyük Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin öz yaradıcılığı ilə bütün Türk dünyasının ədəbi-bədii fikrini zənginləşdirdiyini qeyd edib. Bildirib ki, "Füzuli divanı"nın təqdimatının şairin 530 illik yubileyinə təsadüf etməsi əlamətdar hadisədir.




Qazi Universiteti (Ankara) Türk dili və ədəbiyyatı kafedrasının müəllimi professor İsmet Çetin Füzuli irsini təkcə Türk dünyasının deyil, bütün bəşəriyyətin sərvəti kimi səciyyələndirib. Deyib ki, Füzuli böyük söz ustadlarından biridir. Dil, üslub və poetik texnika baxımından Füzuli ilə müqayisə oluna bilənlər azdır. Alim Türkiyədə Füzuli irsinin öyrənilməsinin tarixi mərhələləri barədə də məlumat verib. Bildirib ki, Türkiyədə Füzuli irsinin öyrənilməsi ilə bağlı ilk akademik iş 1940-cı illərə təsadüf edir. Həmin dövrdən indiyədək təkcə Türkiyədə Füzuli yaradıcılığı ilə bağlı 70-dən çox tədqiqat işi nəşr olunub.

Azərbaycanda Atatürk Mərkəzinin direktoru akademik Nizami Cəfərov qeyd edib ki, Azərbaycan, ərəb və fars dillərində 16 böyük əsəri olan dahi şairin yaradıcılığı bədiiliyi, incəliyi və orijinallığı ilə seçilir. O, Füzulinin yaradıcılığını "estetik sufizm"in zirvəsi adlandırıb. Deyib ki, Füzuli öz yaradıcılığı ilə Osmanlı və Səfəvi dövlətləri arasında qarşıdurmanın önünü kəsməyə çalışıb. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev Məhəmməd Füzulini "türk xalqlarını birləşdirən şəxsiyyət" adlandırıb.

Nizami Cəfərov Füzuli irsinin öyrənilməsində görkəmli yazıçı, alim və pedaqoq Mir Cəlal Paşayevin xidmətlərini də vurğulayıb, onun "Füzuli sənətkarlığı" monoqrafiyası barədə iştirakçılara məlumat verib.

Gəncədəki Nizami Gəncəvi Mərkəzinin direktoru Əlimuxtar Muxtarov və Qazi Universiteti Türk dili və ictimai elmlər kafedrasının müəllimi professor Halil Çeltik də Füzuli yaradıcılığı ilə bağlı fikirlərini bölüşüblər.

# Resurslar və mədəniyyət: arxeologiyadan yeni texnologiyaya

## Milli Xalça Muzeyində beynəlxalq konfrans

*Dekabrın 3-də Azərbaycan Milli Xalça Muzeyində "Resurslar və mədəniyyət. Arxeologiyadan yeni texnologiyaya" adlı beynəlxalq konfrans işə başlayıb.*

Konfrans "Birlik irsi. Gələcək üçün ənənələr" proqramı çərçivəsində Ümumrusiya Dekorativ Sənəti Muzeyi və Azərbaycan Milli Xalça Muzeyinin birgə təşkilatçılığı, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və MDB ölkələrinin Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondunun dəstəyi ilə keçirilir.

Beynəlxalq tədbirə Azərbaycan, Belarus, Rusiya, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Tacikistanın muzey direktorları, sahə üzrə mütəxəssisləri qatılıblar.

Əvvəlcə tədbir iştirakçıları Milli Xalça Muzeyi ilə tanış olublar.

Açılış nitqi ilə çıxış edən Azərbaycan Milli Xalça Muzeyinin direktoru Əminə Məlikova və Ümumrusiya Dekorativ Sənəti Muzeyinin direktoru Yelena Titova beynəlxalq konfransın işinə uğurlar arzulayıblar.

Bildirilib ki, dekabrın 5-dək davam edəcək konfrans günlərində mövzuya uyğun məruzələr dinləniləcək. Konfrans iştirakçıları təbii resursların müxtəlif xalqlar tərəfindən öyrənilməsi yollarını, bu prosesin xalq yaradıcılığı və peşəkar sənətkarlıqda, müasir rəssamların işlərində əksini, MDB ölkələri muzeylərinin biznes strukturlarının nümayəndələri və










gənc kadrlarla işbirliyini müzakirə edəcəklər. Həmçinin muzey idarəçiliyi və rəqəmsallaşdırma sahəsində tətbiq olunan yeniliklər təqdim olunacaq.

Hər iki muzeyin direktorları bir-birinə xatirə hədiyyəsi bağışlayıblar.

Sonra konfrans "MDB məkanında muzeylərarası əməkdaşlıq" mövzusunda akademik sessiya ilə işini davam etdirib. "Birlik irsi. Gələcək üçün ənənələr" plançet sərgisi təqdim olunub.

Konfransın növbəti akademik sessiyaları "Muzey və insanlar", "Muzey və informasiya resursları", "Təbiət və ənənələr ilham mənbəyi kimi", "Avrasiya mədəniyyətlərinin ən qədim əsasları: arxetiplər, simvolizm, arxeoloji artefaktlar", "MDB xalqlarının dekorativ sənəti", "Müasir muzeyin ənənələrin qorunmasında rolu" kimi mövzuları əhatə edir.

Konfrans çərçivəsində mədəni proqram da nəzərdə tutulub.

# "Türk dünyasında milli kimlik və mədəni irs"

## Bakıda türkoloji konqres

Dekabrın 2-də Azərbaycan Milli Elmlər Akademiyası (AMEA), Türkiyənin Mədəniyyət və Turizm Nazirliyi, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA), Çankırı Karatekin Universitetinin Türkologiya İnstitutu və Mukimi adına Kokand Dövlət Pedaqoji İnstitutunun (Özbəkistan) birgə təşkilatçılığı ilə "Türk dünyasında milli kimlik və mədəni irs" mövzusunda III Beynəlxalq Türkoloji Konqres işə başlayıb.



AMEA-nın prezidenti akademik İsa Həbibbəyli 1926-cı ildə Birinci Türkoloji Qurultayın akademiyanın böyük akt zalında keçirildiyini xatırladaraq qeyd edib ki, həmin qurultayın iştirakçıları türkologiyanın əsaslarını yaradıblar. Latın qrafikasında ortaq əlifbaya keçmək haqqında qərarlar məhz burada qəbul olunub.

Birinci Türkoloji Qurultayda iştirak etmiş görkəmli alimlərin repressiya qurbanı olduğunu deyən AMEA rəhbəri onların ideyalarının sönmədiyini diqqətə çatdırıb: "98 il sonra biz burada konfransı keçirərkən iftixar hissi ilə demək istəyirəm ki, bu ilin sentyabrında Bakıda Beynəlxalq Türk Akademiyasının təşkilatçılığı ilə keçirilən mərasimdə 34 hərfdən ibarət latın əlifbası təsdiq edildi".

İsa Həbibbəyli 2026-cı ildə Birinci Türkoloji Qurultayın 100 illiyinin türk dövlətlərinin geniş tərkibdə iştirakı ilə qeyd edilməsinin nəzərdə tutulduğunu bildirib: "Biz alimlərin borcu böyük türk ailəsini elmi cəhətdən dərindən öyrənmək, ortaq layihələr işləmək, xalqlarımıza türk birliyinin əhəmiyyətini çatdırmaqdan ibarətdir".

Konqresin materiallarının çap olunduğunu bildirən akademik kitabda Türk dünyasından 100-ə yaxın alimin məqaləsinin yer aldığını söyləyib.

Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı çıxışında qeyd edib ki, hazırda Türkiyədə fəaliyyət göstərən 208 universitetin yarısından çoxunda türkologiyaya dair tədqiqatlar aparılır. Türkiyə Elmlər Akademiyasının (TÜBA), TÜBİTAK-ın və TİKA-nın dəstəyi ilə Türk dünyasına dair önəmli layihələr həyata keçirilir, hər sahədə tədqiqatlar aparılır.

Özbəkistanın Azərbaycandakı səfiri Bahrom Aşrafxanov Türk dünyasının birliyinə xidmət edən III Beynəlxalq Türkoloji Konqresin əhəmiyyətini vurğulayıb.

Milli Məclisin deputatı Elnarə Akimova, Qarabağ Universitetinin rektoru dosent Şahin Bayramov, TİKA-nın Orta Asiya və Qafqaz şöbəsinin rəhbəri Ali Özgün Öztürk, Çankırı Karatekin Universitetinin Türkiyə Araşdırmalar İnstitutunun direktoru professor Abdulselam Arvas, Hacettepe Universitetinin professoru Özkul Çobanoğlu, Özbəkistanın Kokand Dövlət Pedaqoji İnstitutunun prorektoru Niqora Kadirova, Əl-Fərabi adına Qazax Milli Universitetinin professoru Anarbay Buldıbay, Qırğızıstan Milli Elmlər Akademiyasının professoru Nur Saralayeva və başqaları çıxış ediblər.

Çıxışlardan sonra qonaqlara Mahmud Kaşğarinin "Divanü lüğat-it-türk" əsərinin repressiya qurbanı, özbəkəsilli türkoloq Xalid Səid Xocayevə məxsus latın qrafikalı ilk tərcümə əlyazmasının AMEA-nın Nəsimi adına Dilçilik İnstitutu tərəfindən nəşr olunmuş cildləri hədiyyə edilib.

Türkoloji konqres işini AMEA-nın Mərkəzi Elmi Kitabxanasında bölmə iclasları ilə davam etdirib. Konqres dekabrın 3-də başa çatıb.



# "Dəyişən dünyada mədəniyyətlərin dialoqu"

## ADU-da beynəlxalq forum

*2–5 dekabr tarixlərində Azərbaycan Dillər Universitetində (ADU) "Rus Dünyası" Fondu (RF), Bakıdakı Rus Evi, Voronej Dövlət Universiteti ilə birgə "Dəyişən dünyada mədəniyyətlərin dialoqu" adlı beynəlxalq forum keçirilir.*

ADU-nun rektoru akademik Kamal Abdulla açılış nitqində qeyd edib ki, Azərbaycan və Rusiya arasında əlaqələr dostluq, qarşılıqlı hörmət və əməkdaşlıq prinsipləri üzərində qurulub. Təhsil, elm və mədəniyyət sahələri xalqlarımızı bir-birinə yaxınlaşdıran güclü vasitələrdir. Azərbaycanın tarixən müxtəlif mədəniyyətlərin qovuşduğu məkan olduğunu vurğulayan akademik ölkəmizin mədəni irsinin və mədəniyyətlərarası dialoqa verdiyi töhfələrin əhəmiyyətini qeyd edib, tədbir iştirakçılarına səmərəli müzakirələr arzulayıb.

Rusiyanın Azərbaycandakı səfiri Mixail Yevdokimov müasir dövrdə mədəniyyətlərarası dialoqun vacibliyi haqqında fikirlərini bölüşüb. Bildirib ki, ölkələrimiz arasında münasibətlər mədəniyyət, təhsil və humanitar sahələrdə də dərin köklərə malikdir. Diplomat forumun bu xüsusda əməkdaşlıq üçün yeni zəmin yaradacağına əminliyini ifadə edib.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Polad Bülbüloğlu deyib: "Mən həm diplomat, həm də mədəniyyət xadimi kimi, həmişə inanmışam ki, mədəniyyət vasitəsilə qarşılıqlı anlayışı, sülhü təşviq etmək mümkündür. Azərbaycanın Rusiyadakı səfiri olduğum müddətdə bu prinsiplərə sadiq qalaraq iki ölkə arasında mədəni əlaqələrin möhkəmlənməsi üçün bir çox layihələrə dəstək verdik". Qeyd olunub ki, Azərbaycanla Rusiya arasında humanitar sahədə xüsusi münasibətlər var. Ölkəmizdə rus dili və mədəniyyəti qorunub saxlanılıb, rus dilində təhsilə dövlət səviyyəsində diqqət yetirilir. Azərbaycanlı gənclərin rus dilinə və ədəbiyyatına marağı artır.

Mədəniyyətlərarası əməkdaşlığın siyasi və sosial aspektlərinə toxunan Milli Məclisin üzvü Sevinc Fətəliyeva da forumun əhəmiyyətini vurğulayıb.

Bakıdakı Rus Evinin rəhbəri İrek Zinnurov qeyd edib ki, dəyişən dünyada fərqli mədəniyyətlərin bir-birini anlaması və qarşılıqlı dialoq qurması yalnız xalqlar arasında sülhün qorunması üçün deyil, həm də elmi və mədəni tərəqqi üçün mühüm əhəmiyyət kəsb edir. "Məhz buna görə də belə forumlar tez-tez keçirilməlidir, çünki bu cür tədbirlər ölkələrimiz arasında mədəni mübadiləni təşviq edir. Mədəni mübadilə lazımdır, bu, hamımızı zənginləşdirir".

Voronej Dövlət Universitetinin prorektoru Yuri Bubnov Rusiya-Azərbaycan təhsil və elm sahəsində ikitərəfli əməkdaşlığın genişləndirilməsi imkanlarından danışıb. Bildirilib ki, Azərbaycan və Rusiya universitetləri arasında mövcud əməkdaşlıq təkcə elm və təhsil sahələrini deyil, eyni zamanda mədəni əlaqələri də möhkəmləndirir.

Rusiya Elmlər Akademiyasının müxbir üzvü, professor Aleksey Qromıko və Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun professoru Mark Entin müasir dövrdə müxtəlif xalqların birgə yaşama mədəniyyətinin gücləndirilməsinin qlobal əhəmiyyətindən söz açıblar. Azərbaycan və Rusiya arasında əlaqələrin inkişafında mədəniyyətin vacib rolu vurğulanıb.

Forum işini bölmə iclasları ilə davam etdirib.

"Dəyişən dünyada mədəniyyətlərin dialoqu" adlı beynəlxalq forum dekabrın 5-də işini yekunlaşdıracaq.

№89-90 (2155)
4 dekabr 2024
www.medeniyyet.az

# Xırdalan şəhərində vətəndaşların müraciətləri dinlənilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, hər ay mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən şəhər və rayonlarda qəbullar keçirilir, vətəndaşların müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilir.



Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli noyabrın 29-da Xırdalan şəhərində vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Adil Kərimli və Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev Ümummilli liderin Xırdalan şəhərindəki abidəsi önünə tər çiçək dəstələri qoyaraq əziz xatirəsini ehtiramla yad ediblər.

Abşeron rayon Heydər Əliyev Mərkəzində keçirilən qəbulda nazir Sumqayıt şəhəri, Abşeron, Xızı və Qubadlı rayonlarından olan vətəndaşların müraciətlərini dinləyib.

Vətəndaşlar, əsasən, mədəniyyət sahəsi ilə təkliflər, məşğulluq, iş yerinin dəyişdirilməsi, maddi-texniki təchizatın yaxşılaşdırılması, əməyin qiymətləndirilməsi və digər məsələlərlə bağlı müraciətlərini diqqətə çatdırıblar.

Mədəniyyət naziri vətəndaşların xahiş və təkliflərini dinləyərək qaldırılan hər bir məsələnin operativ araşdırılması, qanunvericiliyə uyğun həlli ilə bağlı addımlar atılacağını bildirib.

Qəbulda iştirak edən şəhid ailələri və qazilərin qeyd etdikləri məsələlərə xüsusi diqqətlə yanaşılması və obyektiv baxılması ilə bağlı nazirliyin məsul əməkdaşlarına tapşırıqlar verilib.

# "Gəncədən Bakıya" – mahnı və romans axşamı

Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyası və Beynəlxalq Muğam Mərkəzinin birgə təşkilatçılığı ilə "Gəncədən Bakıya" layihəsi çərçivəsində "Mahnı və romans axşamı" adlı konsert keçirilib.



Gecədə Xalq artisti Sevinc İbrahimova, Əməkdar mədəniyyət işçisi Mehparə Cəfərova, Əməkdar artist Tural Abdullayev, Gəncə Dövlət Filarmoniyasının solistləri Rüstəm Cəfərov, Vasif Bayramov Niyazinin "Vətən nəğməsi", Fikrət Əmirovun "Gülüm", Süleyman Ələsgərovun "Vətənimdir", Vasif Adıgözəlovun "Qərənfil", Ramiz Mustafayevin "Məlahət sultanı" romansları, Tofiq Quliyevin "Sevdiyim qız", "Lirik mahnı", Səid Rüstəmovun "Alagöz", Cahangir Cahangirovun "Ana", Sevil Əliyevanın "Qayıt, əzizim", Ağabacı Rzayevanın "Könlüm" mahnılarını ifa ediblər.

Sonda Müslüm Maqomayevin "Azərbaycan" mahnısı səsləndirilib. Konsert proqramı alqışlarla qarşılanıb.

# "Mənim yaşıl dünyam" – rəsm müsabiqəsi başa çatıb

Xəbər verdiyimiz kimi, Mərkəzi Aran RMİ tərəfindən "Yaşıl dünya naminə həmrəylik ili" münasibətilə "Mənim yaşıl dünyam" adlı rəsm müsabiqəsi keçirilir.



Müsabiqədə regional idarənin xidməti əhatəsinə aid olan Mingəçevir şəhəri, Ağdaş, Göyçay, Kürdəmir, Ucar, Yevlax və Zərdab rayonlarından uşaqlar iştirak ediblər.

Seçim mərhələsində ümumilikdə 200-ə qədər namizəd təbiətə və ətraf mühitə həsr edilmiş rəsmlərini müsabiqəyə təqdim edib.

Birinci mərhələdə fərqlənən namizədlər finalda iştirak etmək hüququ qazanıblar.

Qeyd edək ki, final mərhələsinin keçirilmə yeri və tarixi barədə ətraflı məlumat veriləcək.

# Daha 34 ailə Cəbrayıl şəhərinə qayıdıb

Yenidən qurulan Cəbrayıl şəhəri dekabrın 2-də daha 34 ailəyə (129 nəfər) qucaq açıb. Şəhərə qədəm qoyan ailələr sevinc göz yaşları ilə öz doğma yurduna qovuşub.



Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi və Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi rəsmilərinin iştirakı ilə ailələrə yeni yaşayış kompleksindəki mənzillərinin açarları təqdim edilib.

ANAMA əməkdaşları tərəfindən sakinlərə mina və partlamamış silah-sursatların təhlükəsi barədə ətraflı məlumat və müvafiq tövsiyələr verilib.

Qeyd edək ki, hazırda Qarabağ və Şərqi Zəngəzurda ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə həyata keçirilən layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən ümumilikdə təxminən 30 min insan yaşayır.

# Yubiley, konsert, tamaşa, maarifləndirici tədbir...

Quba-Xaçmaz Regional Mədəniyyət İdarəsinin (RMİ) təşkilatçılığı ilə Quba rayon MKS Mərkəzi Kitabxananın abonement bölməsinin fondunda tanınmış şair, tərcüməçi İlyas Tapdığın (1934–2016) 90 illik yubileyinə həsr olunmuş "Ustad haqqı qazanmış şair" adlı tədbir keçirilib. Çıxış edənlər bildirib ki, İlyas Tapdıq Azərbaycan poeziyasında söz fədaisi idi. Onun uşaq və böyüklər üçün 40-a yaxın kitabı çap olunub. Kitabxananın fəal oxucuları şairin yaradıcılığından nümunələr səsləndiriblər.





***

Xaçmaz şəhər Uşaq incəsənət məktəbində görkəmli bəstəkarlar Tofiq Quliyev (1917-2000) və Fikrət Əmirovun (1922-1984) yaradıcılığına həsr edilmiş konsert proqramı keçirilib. Məktəbin müəllim və şagird kollektivi bəstəkarların əsərlərindən ibarət maraqlı musiqi nömrələri ilə çıxış ediblər.





***

Şəki və Zaqatala rayon Heydər Əliyev mərkəzlərində, həmçinin Qəbələ rayon Mədəniyyət Mərkəzində "Media savadlılığı" adlı konfrans keçirilib. Çıxışlarda medianın mədəniyyət sahəsindəki rolu vurğulanıb. Konfransın sonunda əməkdaşların sualları cavablandırılıb, tövsiyələr verilib.

***

Qazax rayon MKS-nin Elmar Hüseynov adına Mərkəzi Kitabxanasında Naxçıvan Muxtar Respublikasının 100 illiyi ilə bağlı hazırlanan "Ulu yurdum Naxçıvan" adlı videoçarx nümayiş etdirilib. Videoçarxda Naxçıvanın tarixi, mədəniyyəti, abidələri, Azərbaycanın hər sahədə tərəqqisinə töhfələr vermiş görkəmli şəxsiyyətləri haqqında məlumatlar yer alıb.

***

Ağdam rayon Mədəniyyət Mərkəzinin tabeliyində fəaliyyət göstərən Qaradağlı kənd Mədəniyyət evində narkomaniya və narkobiznesə qarşı mübarizə ilə əlaqədar "Narkomaniya əsrin bəlasıdır" adlı tədbir keçirilib. Narkomaniyanın törətdiyi fəsadlar və ona qarşı mübarizə yolları haqqında danışılıb.

***

Kəlbəcər rayon MKS-nin təşkilatçılığı ilə 1 nömrəli şəhər kitabxana filialı (Gəncə şəhəri) "2015–2025-ci illərdə Azərbaycan Gənclərinin İnkişaf Strategiyası"na uyğun olaraq, "Gənclik bir millətin yaşaması, inkişafı üçün təməl daşıdır" başlığı altında tədbir keçirilib. Çıxışlarda ölkəmizdə həyata keçirilən gənclər siyasətindən söz açılıb, mövzu ilə bağlı videoçarx nümayiş olunub.

***





Şirvan Tarix-Diyarşünaslıq Muzeyi, şəhər Uşaq musiqi məktəbi və Təhsil sektorunun birgə təşkilatçılığı ilə "Könül mülkünün sultanı Məhəmməd Füzuli" adlı tədbir keçirilib. Çıxış edənlər M.Füzulinin Azərbaycan ədəbi-bədii fikrinin inkişafında müstəsna yerindən danışıblar. Uşaq musiqi məktəbinin müəllim və şagirdlərinin ifasında şairin qəzəllərinə bəstələnmiş musiqi nömrələri səsləndirilib, yaradıcılığından seçmə nümunələr təqdim olunub.

***

Şirvan şəhər Mərkəzi Kitabxanasında "Ziyalı qadınların işığında" adlı görüş keçirilib. Qeyd olunub ki, cəmiyyətin inkişafına töhfələr verən, elm sahəsində xüsusi xidmətləri olan alim və ziyalılarla görüşüb həmsöhbət olmaq xüsusi əhəmiyyət kəsb edir.

***

Yardımlı rayon Mərkəzi Kitabxanasında "Erkən nikaha yox deyək!" mövzusunda tədbir keçirilib. Bildirilib ki, bu gün erkən nikah aktual problemlərdən biridir. Erkən yaşda qızların ailə həyatı qurmağa məcbur edilməsi onların təhsilinə, bir fərd kimi inkişafına mane olur.

***

Sumqayıtdakı Gənclər Kitabxanasında Əziz Əliyev adına Tibb Kollecinin müəllim və şagird heyətinin iştirakı ilə "Dünya QİÇS-lə Mübarizə Günü"nə həsr olunmuş dəyirmi masa keçirilib. Tədbirdə kitabxananın müdir vəzifəsini icra edən Leyla Mahmudova, şəhər Narkoloji Dispanserin həkimi Vüsal Cabbarov, Tibb Kollecinin müəllimi həkim-infeksionist Ofeliya Əhmədova çıxış ediblər.

***

Cəlilabad rayon Heydər Əliyev Mərkəzində Vətən müharibəsinin şəhid baş leytenantı Əmrah Hüseynlinin xatirəsinə həsr olunmuş tamaşa nümayiş olunub.

Cəlilabad Xalq teatrının təqdim etdiyi tamaşada Vətən müharibəsində əsgər və zabitlərimizin igidliyi ifadə olunub. Nümayişdən sonra icra başçısı Rafiq Cəlilov, şəhidin anası Yeganə Hüseynova və Lənkəran-Astara RMİ-nin rəisi Bəxtiyar Qılıncov çıxış ediblər. Ə.Hüseynlinin həyatından, döyüş yolundan və göstərdiyi qəhrəmanlıqdan söz açılıb.

***

Azərbaycan, Tatarıstan (RF), Ukrayna, Özbəkistan və Tacikistanın sirk ustalarından ibarət olan "Fantaziya" səyyar sirki Astara rayon Mədəniyyət Mərkəzində məktəblilərin qonağı olub. Kollektivin şən klounlar, illüziyaçı, jonqlyor və akrobatlar, eləcə də əhliləşdirilmiş heyvanlarla göstərdiyi şou-proqram uşaqlar tərəfindən böyük maraqla qarşılanıb.

***

Ağstafa şəhər Hüseyn Arif adına Uşaq musiqi məktəbində görkəmli bəstəkar Fikrət Əmirovun anadan olmasının 102-ci ildönümü münasibətilə tədbir keçirilib. Məktəbin müəllim və şagirdlərinin ifasında bəstəkarın bir sıra əsərləri səsləndirilib.

**Hazırladı: N.Məmmədli**

# "Vətəndaş A" Biləsuvara gedib

Biləsuvar rayon Heydər Əliyev Mərkəzində "Vətəndaş A" serialının bir bölümü nümayiş olunub. Təqdimat Biləsuvar Rayon İcra Hakimiyyəti, Şirvan-Salyan RMİ və İctimai TV-nin birgə təşkilatçılığı ilə keçirilib.

Filmin yaradıcı heyəti əvvəlcə Salyan Dövlət Rəsm Qalereyası tərəfindən Biləsuvar rayon Heydər Əliyev Mərkəzində sərgilənən "Caz rəsmlərdə" adlı yaradıcılıq sərgisi ilə tanış olublar. Biləsuvar rayon Uşaq incəsənət məktəbi kollektivinin ifası da dinlənilib.

Nümayişdən əvvəl çıxış edən prodüser Sevinc Əliyeva, baş rolların ifaçıları Qurban İsmayılov və Günəş Mehdizadə bildiriblər ki, film vətəndaş kimliyini, onun cəmiyyətin timsalında təşəkkülü və təhsilin bu prosesdə əhəmiyyətini bir daha tamaşaçıya çatdırır.

Biləsuvarın icra başçısı Faiq Qürbətov filmin yaradıcı heyətinə uğurlar arzulayıb.

Sonra film nümayiş olunub.

Serialın bütün bölümlərinin Heydər Əliyev Mərkəzində nümayiş etdirilməsi nəzərdə tutulur.



Ssenari müəllifi Asiman Ağa Rövşən, rejissoru Elvin Rüstəmzadə olan filmin ideyası Cəfər Cabbarlının "Almaz" pyesindən götürülüb.

# Qrafik dizayn kursunu bitirənlərə sertifikatlar verilib

Şirvan-Salyan RMİ-nin təşkilatçılığı ilə keçirilən qrafik dizayn kursunu müvəffəqiyyətlə başa vuran əməkdaşlara sertifikatlar verilib. Sertifikatlar RMİ-nin rəisi Şahin Şahbazov tərəfindən təqdim olunub.

Kursun əsas məqsədi idarənin tabeliyində olan müəssisələrin işçilərinin qrafik dizayn bacarıqlarını inkişaf etdirmək və bu biliklərin iş prosesində tətbiqini təmin etməkdir.

3 ay davam edən tədris proqramı regional idarənin kompüter üzrə mütəxəssisi Vüsal Məmmədov tərəfindən aparılıb.

Tədbirdə 40 ildən artıq mədəniyyət sahəsində fəaliyyət göstərən Adil Əhmədova Mədəniyyət Nazirliyi tərəfindən verilən "Əmək veteranı" vəsiqəsi də təqdim olunub.



Qeyd edək ki, kursun Biləsuvar rayon Heydər Əliyev Mərkəzində davam etdirilməsi nəzərdə tutulur.

# Qarabağ Universitetində incəsənət

Ölkə başçısının müvafiq sərəncamı ilə yaradılan və 2024-cü ilin sentyabrında, yeni dərs ilində fəaliyyətə başlayan Qarabağ Universitetinin (Xankəndi) İncəsənət fakültəsində musiqi müəllimliyi, instrumental ifaçılıq, vokal, milli vokal, xanəndəlik və dizayn ixtisasları tədris olunur. Fakültədə 130-a yaxın tələbə təhsil alır.

İncəsənət fakültəsinin dekanı, bəstəkar Türkər Qasımzadənin bildirdiyinə görə, tədrisə aralarında Xalq artisti, Əməkdar artistlər də yer alan peşəkar müəllimlər cəlb olunub.

Ötən qısa müddətdə tədris prosesi ilə yanaşı, fakültənin iştirakı ilə mədəniyyət layihələrinə də start verilib, konsert və rəsm sərgisi təşkil edilib.

T.Qasımzadə qeyd edib ki, tələbələrimiz müxtəlif sərgilərdə, konsertlərdə, festivallarda iştirak edir: "Bu hələ başlanğıcdır. Əminəm ki, çox uğurlara da imza atacağıq. Qarabağ Universiteti İncəsənət fakültəsinin adını mədəniyyət sahəsində tez-tez eşidəcəksiniz".

# Səhnədə "Həyata dönüş" gözlənilir

Xaçmaz Xalq teatrında yeni səhnə əsəri hazırlanır. Nəzər Mirzəyevin erkən nikahlara, qızların təhsildən yayınmasına qarşı çıxan "Həyata dönüş" pyesi əsasında tamaşanın 2025-ci ilin əvvəlində təhvil verilməsi gözlənilir. Kollektiv tamaşanı 2 fevral – Gənclər gününə hədiyyə etmək istəyir.



Teatrın bədii rəhbəri və rejissoru İlham Tağızadə bildirib ki, daha çox gənclərin problemlərinə həsr olunmuş əsərlərə müraciət edirik. Hazırda teatrın repertuarında N.Mirzəyevin pyesi əsasında hazırlanmış, gəncləri narkomaniyadan uzaq olmağa çağıran "Fəlakət konfetləri" tamaşası oynanılır. Yaxın planlardan biri də gələn il martın 10-da həm Milli Teatr Gününü, həm də teatrın 10 yaşını yeni tamaşa ilə qeyd etməkdir.

**Gülcahan**

# Bəstəkar Süleyman Ələsgərovun 100 illiyi münasibətilə

## Biblioqrafiya və not məcmuəsinin təqdimatı

Mədəniyyət Nazirliyinin və Milli Kitabxananın birgə layihəsi olan "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından növbəti nəşr – "Süleyman Ələsgərov. Biblioqrafiya" kitabı işıq üzü görüb. Biblioqrafiya bu il anadan olmasının 100 ili tamam olan bəstəkar, Xalq artisti Süleyman Ələsgərovun (1924–2000) həyat və yaradıcılığını əhatə edir.

Noyabrın 29-da Milli Kitabxanada biblioqrafik nəşrin, eləcə də "Süleyman Ələsgərov. Sonata" not məcmuəsinin təqdimatı keçirilib.

Milli Kitabxananın direktoru professor Kərim Tahirov tədbiri açaraq bəstəkarın ömür yolundan və zəngin yaradıcılığından danışıb. Süleyman Ələsgərov kimi görkəmli sənətkarların heç vaxt unudulmayacağı, yaratdığı əsərlərlə ölməzlik qazandığı vurğulanıb.

Milli Məclisin sədr müavini akademik Rafael Hüseynov çıxışında Süleyman Ələsgərovun Azərbaycan mədəniyyətində müstəsna xidmətləri olduğunu qeyd edib. Bildirib ki, yaradıcılığında dahi bəstəkar Üzeyir Hacıbəylidən bəhrələnən Süleyman Ələsgərovun "Bahadır və Sona" operası Azərbaycan musiqisinin incilərindən biridir.



"Süleyman Ələsgərov. Biblioqrafiya" kitabının görkəmli bəstəkarı daha yaxından tanımaq üçün ən yaxşı mənbə olduğunu deyən akademik bu işdə əməyi keçən hər kəsə təşəkkür edib.



Azərbaycan Milli Konservatoriyası nəzdində fəaliyyət göstərən Musiqi Kollecinin direktoru professor Nazim Kazımov, Şuşa Rayon İcra Hakimiyyəti başçısının müavini Vüsalə Fətəliyeva, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının prorektoru professor Gülnaz Abdullazadə, Xalq artistləri Faiq Sücəddinov, Sərdar Fərəcov, Ağaverdi Paşayev və başqaları Süleyman Ələsgərovun çoxşaxəli fəaliyyətindən, yaradıcılığından, elmi-pedaqoji fəaliyyətindən, doğma Şuşaya sonsuz sevgisindən, xeyirxahlığı və tələbələrə qayğısından bəhs ediblər.

Bəstəkarın nəvəsi Əməkdar artist Tahir İmanov ailələri adından ölkə başçısına Süleyman Ələsgərovun 100 illik yubileyinin keçirilməsi haqqında sərəncama görə təşəkkürünü bildirib. Süleyman Ələsgərovun 100 illiyinin doğma yurdu Şuşada da qeyd olunduğu xüsusi vurğulanıb.

Qeyd edək ki, "Süleyman Ələsgərov. Biblioqrafiya" kitabının tərtibçisi Mətanət İbrahimova, elmi redaktoru professor Kərim Tahirov, ön söz müəllifləri akademik Rafael Hüseynov, Xalq artisti Siyavuş Kərimi, redaktoru Xeyransa Abbasovadır.

1945–2024-cü illəri əhatə edən biblioqrafiyada bəstəkarın əsərləri, həyat və yaradıcılığı haqqında zəngin material əhatə olunub.

Biblioqrafiya ilə Milli Kitabxananın saytında müvafiq linkdə tanış olmaq olar.

"Milli musiqi xəzinəmizdən" seriyası ilə çap olunan "Süleyman Ələsgərov. Sonata" not məcmuəsinin layihə rəhbəri professor Kərim Tahirov, tərtibçisi Mətanət İbrahimova, redaktoru Sərdar Fərəcovdur.

# Xalq rəssamı Rafiq Nəsirov dünyasını dəyişib

Azərbaycan mədəniyyətinə ağır itki üz verib. Tanınmış kino rəssamı, Xalq rəssamı, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü Rafiq Nəsirov 29 noyabr 2024-cü il tarixində, 78 yaşında vəfat edib.



Rafiq Əliş oğlu Nəsirov 4 avqust 1947-ci ildə Sabirabad şəhərində anadan olub. 1964-cü ildə Politexnik Texnikumunun Memarlıq fakültəsini, 1969-cu ildə Azərbaycan Politexnik İnstitutunun (indiki Azərbaycan Texniki Universiteti) Memarlıq şöbəsini bitirib.

1969-cu ildə "Azərbaycanfilm" kinostudiyasında memar kimi əmək fəaliyyətinə başlayıb. Daha sonra kino rəssamlığı üzrə işləyib. "Azərbaycanfilm"də müxtəlif illərdə istehsal olunmuş "Bədbəxtliyin astanasında", "Yeddi gözəl", "Əzablı yollar", "Musiqili xaş", "Bəyin oğurlanması", "Cin mikrorayonda", "Qəm pəncərəsi", "Şeytan göz qabağında", "Yaramaz", "Sahilsiz gecə", "Bəxt üzüyü", "Qəzəlxan", "Nakəs", "Həm ziyarət, həm ticarət", "Yük", "Otel otağı", "Sarı gəlin", "Cavad xan", "Nə gözəldir bu dünya", "Ovsunçu", "Küçələrə su səpmişəm", "Məhkumlar", "Biz qayıdacağıq", "Günaydın, mələyim!", "Yarımçıq xatirələr", "Dolu", "Mərmər soyuğu" və s. filmlərin quruluşçu rəssamı olub.

Rafiq Nəsirov eyni zamanda Rusiyada lentə alınan bir sıra teleseriallara da bədii tərtibat verib, Polşa və Fransa kinematoqrafçıları ilə əməkdaşlıq edib.

Sənətkarın yaradıcılığı dövlətimiz tərəfindən yüksək qiymətləndirilib, o, 2000-ci ildə "Əməkdar rəssam", 2007-ci ildə "Xalq rəssamı" fəxri adlarına, Azərbaycan kinematoqrafiyasının inkişafında xidmətlərinə görə isə 2017-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülüb.

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Xalq rəssamı Rafiq Nəsirovun vəfatı ilə əlaqədar sənətkarın ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Allah rəhmət eləsin.

# Aşıq Mikayıl Azaflının 100 illiyi Eskişehirdə qeyd edilib

Türkiyənin Eskişehir şəhərində XX əsr Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi Mikayıl Azaflının (1924–1990) 100 illik yubileyi münasibətilə tədbir keçirilib.

Proqram Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY, Azaflı Sosial Yardım və Mədəniyyət Dərnəyi, Eskişehir Azərbaycanlılar Dərnəyi və Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyasının əməkdaşlığı ilə ərsəyə gəlib.

"Azaflı" Sosial Yardım və Mədəniyyət Dərnəyinin rəhbəri Arzuman Azaflı və Azərbaycan Mədəniyyət Nazirliyinin TÜRKSOY-dakı nümayəndəsi Elçin Qafarlı görkəmli sənətkarın yaradıcılığı, Azərbaycan mədəniyyətinə, aşıq sənətinə verdiyi töhfələrdən bəhs ediblər.




Sonra Azərbaycan və Türkiyənin saz ifaçılarının təqdimatında Mikayıl Azaflının əsərləri səslənib.

# "Füzuli sənətkarlığı" İordaniyada ərəb dilində çap olunub




Görkəmli yazıçı, ədəbiyyatşünas, professor Mir Cəlalın dahi Azərbaycan şairi Məhəmməd Füzuli (1494–1556) irsindən bəhs edən "Füzuli sənətkarlığı" kitabı İordaniyada ərəb dilində işıq üzü görüb.

Şairin 530 illik yubileyinə töhfə olaraq ərsəyə gətirilmiş kitabın ön söz müəllifi iordaniyalı yazıçı və ədəbiyyatşünas Samih əl-Məhariq, ərəb dilinə tərcüməçisi Fərid Camalovdur.

"Əl-Əzminə" nəşriyyatında nəfis tərtibatda çap edilən kitab İordaniyanın mərkəzi kitabxanalarına, universitet və kitab evlərinə paylanılacaq.

Qeyd edək ki, Mir Cəlal 1940-cı ildə "Füzulinin poetik xüsusiyyətləri" mövzusunda müdafiə etdiyi namizədlik dissertasiyasını 1958-ci ildə genişləndirərək "Füzuli sənətkarlığı" adı altında monoqrafiya kimi nəşr etdirib.

Monoqrafiya 2023-cü ildə alman dilində də çap olunub.

# Böyüklər üçün yerli animasiya filmləri

Azərbaycan Kinematoqrafçılar İttifaqının təşkilatçılığı ilə "CinemaPlus-Azərbaycan"da yerli klassik animasiya filmləri nümayiş olunub.



İttifaqdan bildirilib ki, proqramda böyüklər üçün "Seans", "Güzgü" və "Sükutun pozulması" animasiya filmləri yer alıb.

Tədbirin moderatoru Sevda Sultanova nümayişə dəstək verən Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasına və Azərbaycan Dövlət Film Fonduna təşəkkürünü bildirib.

Nümayişdən sonra "Seans" animasiya filminin müəllifi Firəngiz Qurbanova, "Güzgü" və "Sükutun pozulması" filmlərinin rejissorları Elçin Hami Axundov və Məsud Pənahi iştirakçıları maraqlandıran sualları cavablandırıblar.

# Filarmoniyada fleyta axşamı

Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının səhnəsində Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin konserti keçirilib.



Noyabrın 27-də gerçəkləşən konsertdə Azərbaycan Dövlət Kamera Orkestrinin (bədii rəhbər və baş dirijor Xalq artisti Fəxrəddin Kərimov) müşayiəti ilə solist Mirxalid Məmmədzadə (fleyta) çıxış edib.

Proqramda E.Qriqin simli orkestr üçün iki melodiya (op.53), İ.S.Baxın fleyta və simlilər üçün konsert d-moll və C.Vilsonun simli orkestr üçün süitası səsləndirilib.

Bildirək ki, bu il anadan olmasının 150 illiyi qeyd edilən Britaniya bəstəkarı C.Vilsonun (1874-1919) bu əsəri ölkəmizdə ilk dəfə ifa olunub.

Konsert proqramı musiqisevərlər tərəfindən alqışlarla qarşılanıb.

# "Xəsis cəngavər" yeni il öncəsi görüşə gələcək

2024-cü ilin son günlərində Mədəniyyət Nazirliyinin dəstəyi ilə klassik musiqi xiridarlarını sevindirəcək yeni layihə reallaşacaq. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı ilə Azərbaycan Dövlət Akademik Filarmoniyası böyük rus bəstəkarı S.Raxmaninovun opera yaradıcılığına müraciət edib.

İlin sonuncu şənbə günü, dekabrın 28-də bəstəkarın A.Puşkinin "Xəsis cəngavər" pyesi ("Kiçik faciələr" silsiləsi) əsasında bəstələdiyi (libretto müəllifi də bəstəkarın özüdür) eyniadlı opera ilk dəfə Azərbaycan səhnəsində səslənəcək. Filarmoniyada operanın konsert şəklində ifası təqdim ediləcək.

Opera 1904-cü ildə yazılsa da, ilk tamaşası 1906-cı ildə olub. Bu əsərin Azərbaycan səhnəsinə gəlişinin ideya müəllifi və musiqi rəhbəri Xalq artisti Yalçın Adıgözəlovdur. Əsəri onun dirijorluğu ilə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının orkestri və Niyazi adına Dövlət Simfonik Orkestri birlikdə ifa edəcək.

Konsert-tamaşada Xalq artisti Əvəz Abdullayev (Baron), Əməkdar artist Əliəhməd İbrahimov (Sələmçi), beynəlxalq müsabiqə laureatları Ataş Qarayev (Albert), Mahir Tağızadə (Hersoq) və İqor Yadrovu (Xidmətçi) dinləyə biləcəyik.

# "Avrasiya"nın mükafatçıları bəllidir

Noyabrın 30-da Qazaxıstanın Almatı şəhərində XVII "Avrasiya" Beynəlxalq Kino Festivalının bağlanış mərasimi olub.



Bir həftə ərzində 15 ölkəni təmsil edən 30-dan çox yeni ekran əsəri beynəlxalq və Mərkəzi Asiya – Türk dünyası müsabiqə proqramlarında təqdim edilib.

Münsiflər heyətinin qərarı ilə Mərkəzi Asiya – Türk dünyası müsabiqəsinin Qran-pri mükafatı Saxa Respublikasından (RF) rejissor Mixail Lukaçevskinin "Bəyaz durnalar rəqs edərkən" filminə verilib. Polşa istehsalı olan "Demək olar ki, heç nə" (rejissor Qjeqoj Debovski) filmi isə ikinci Qran-prini qazanıb.

Mərkəzi Asiya – Türk dünyası müsabiqəsində "Sevgililər dağı" (Tatarıstan), "Sərhəddə sövdələşmə" (Qırğızıstan), "Hemmenin öləcəyi günlərdən biri" (Türkiyə), "Joktau" (Qazaxıstan) filmləri ayrı-ayrı nominasiyalar üzrə mükafata layiq görülüb.

Beynəlxalq müsabiqədə isə mükafatları "Ay" (Avstriya), "Demək olar ki, heç nə" (Polşa), "Nirvana" (Banqladeş), "İlin fəsilləri evi" (Cənubi Koreya) filmləri bölüşüb.

Festivalın bağlanış mərasimində beynəlxalq müsabiqənin münsiflər heyətinin sədri Nuri Bilgə Ceylan (Türkiyə) "Dünya kinematoqrafına görkəmli töhfəsinə görə" xüsusi mükafatı ilə təltif olunub.

**Gulcahan**

# Mstislav Rostropoviçlə Alfred Şnitkeni nə birləşdirirdi?



XX əsrin ən məşhur və ən çox ifa olunan bəstəkarlarından biri də Alfred Şnitkedir. O, 24 noyabr 1934-cü ildə Rusiyanın Saratov vilayətinin Engels şəhərində anadan olub.

Alman-yəhudi əsilli bəstəkar "Həkim Yohanna Faustun hekayəsi", "Axmaqla həyat", "Gezualdo", "On birinci əmr" operalarının, "Per Gyunt", "Labirintlər", "Eskizlər" baletlərinin, digər janrlarda əsərlərin müəllifidir. Filmlərə və teatr tamaşalarına musiqi yazıb.

O dövrün ən yaxşı ifaçıları A.Şnitkedən əsər almaq üçün növbəyə dayanırdılar. Amma heç də hər kəs buna nail ola bilmirdi.

Dahi musiqiçilər Alfred Şnitke və Mstislav Rostropoviçi təkcə birgə iş deyil, həmçinin möhkəm dostluq əlaqələri birləşdirirdi. Onları 1987-ci ildə violonçelçi Yuri Başmet tanış etmişdi. M.Rostropoviç o zaman Amerikada yaşayırdı və Vaşinqton orkestrinə rəhbərlik edirdi. Bir dəfə Y.Başmet dahi violonçelçini öz ifasında A.Şnitkenin "Orkestrlə alt üçün konsert" əsərinə qulaq asdırır. Musiqini eşidən M.Rostropoviçin gözləri yaşarır. O, A.Şnitkenin onun üçün də nəsə yazmağını istəyirdi, amma bunu bəstəkardan necə istədiyini bilmirdi. Çünki onlar tanış deyildilər. Y.Başmet M.Rostropoviçə bəstəkara məktubla müraciət etməyi təklif edir. M.Rostropoviç belə də edir. O yazır: "Mənim yaxın günlərdə 60 yaşım oldu və mən bilmirəm daha nə qədər violonçeldə ifa edə biləcəyəm. Ona görə də məni növbəyə salmayın. Mənim üçün nə istəyirsinizsə yazın. Mən opera xəyal edirəm və bu arzumu əlimdən almayın. Onu necə ilə istəyirsinizsə yazın". Beləliklə, M.Rostropoviç A.Şnitkeyə rəsmi sifariş verir və ona məşhur xarici bəstəkarlara ödənən ən yüksək qonorarı təklif edir. Bəstəkar onun sifarişini yerinə yetirir. Hətta sifarişi üstələyir. Belə ki, A.Şnitke M.Rostropoviç üçün "II violonçel konserti"ni, "II violonçel sonatası"nı, "Axmaqla həyat" və "Gezualdo" operalarını, həmçinin "Altıncı simfoniya"nı yazır. Bəstəkar xüsusi olaraq M.Rostropoviç üçün özünün "Per Gyunt" baletinin epiloquna əlavələr edir.

A.Şnitke "Gezualdo" operasını 1993-cü ildə yazıb. Əsərin premyerası 1995-ci ildə Vyana Operasında M.Rostropoviçin dirijorluğu ilə baş tutub. "Axmaqla həyat" operasını bəstəkar 1991-ci ildə M.Rostropoviçin ideyası ilə yazıb. Opera ilk dəfə 1992-ci ilin 13 aprel tarixində Rostropoviçin dirijorluğu ilə Amsterdam Opera və Balet Teatrında səsləndirilib.

Bəstəkar "Altıncı simfoniya"sını 1992-ci ildə M.Rostropoviç üçün yazıb. Əsər 1993-cü ilin sentyabrında Moskva Konservatoriyasının böyük zalında M.Rostropoviçin dirijorluğu ilə Vaşinqton Milli Simfonik Orkestrinin ifasında səsləndirilib. Möhtəşəm ifadan sonra A.Şnitke səhnəyə çıxaraq maestronu təbrik edib.

Dahi violonçelçinin ifası A.Şnitkeni heyran edirdi. Bəstəkar o günlərdən belə danışırdı: "Mən Rostropoviçin ifa tərzinin məşqdən-məşqə necə yüksəldiyini xatırlayıram. Axı mən "II violonçel konserti" əsərini yazanda heç düşünməmişdim bunu violonçeldə ifa etmək əlverişli olacaq, ya yox. Nəticədə o bütün əsəri öyrəndi. Biz eyni mərtəbədə yaşayırdıq və həmişə onun necə məşq etdiyini eşidirdik. O deyirdi ki, texniki cəhətdən daha mürəkkəb olan başqa heç bir şey ifa etməyib".

M.Rostropoviç isə bu haqda deyirdi: "Şnitkenin musiqisində bütün həyatımız əks olunur. Həyatın sevinci, dissonansları, rəngarəngliyi, faciəsi. Biz Şnitkeyə görə yaşayırıq".

Violonçelçidən Şnitkenin "II violonçel konserti" ilə digər ifa etdiyi əsərlər arasındakı fərq barədə soruşanda, o, qısaca demişdi: "Aşiqəm, aşiqəm... Müqayisə etməli heç bir şey yoxdur".

A.Şnitke 1998-ci il avqustun 3-də Almaniyanın Hamburq şəhərində dünyasını dəyişib, Moskvadakı Novodeviçye qəbiristanlığında dəfn edilib.

**R.Həsənova**
**L.və M.Rostropoviçlərin Ev-Muzeyinin elmi işçisi**



# “Səndən eldə bir nişanə qalar söz...”

## Arzu Babayev: “Atam deyirdi ki, təfəkkür də, dünyagörüşü də, dünyaya çıxmaq da mütaliədən keçir”

Bu il Xalq şairi, Dövlət mükafatı laureatı Nəbi Xəzrinin (Nəbi Ələkbər oğlu Babayev; 1924–2007) 100 illik yubileyidir. Bu münasibətlə sentyabrın 9-da Prezident İlham Əliyev görkəmli şair və ictimai xadimin yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb. Sərəncamda Nəbi Xəzri Azərbaycan ədəbiyyatını yeni poetik obrazlarla zənginləşdirərək onun inkişafında özünəməxsus rol oynamış görkəmli söz ustası kimi xarakterizə edilir, onun çoxcəhətli yaradıcılığı boyu insanın mənəvi aləminin saflığını geniş lirik-epik lövhələrlə tərənnüm etdiyi bildirilir. Altmış ildən artıq həqiqi ədəbiyyata xidmət etmiş şairin əsərləri mövzu dairəsinin genişliyi və rəngarəngliyi ilə səciyyələnir. Onun müasirlərimizin, eləcə də tarixi şəxsiyyətlərin həyatından bəhs edən, lirik-epik lövhələrlə zəngin poemaları özünün dərin lirizmi, emosionallığı, orijinal üslubu və obrazlılığı ilə seçilir.

Filologiya elmləri doktoru Vaqif Yusifli Nəbi Xəzri poeziyası haqqında yazır: “Nəbi Xəzrisiz nə XX əsrin, nə də indi yaşadığımız XXI əsrin Azərbaycan poeziyasını təsəvvürə gətirmək mümkündür. Onun poeziyası son yetmiş beş ilin milli-mənəvi dəyərlərimiz sırasındadır. Heç bir mübaliğəyə, epitetə ehtiyac duymadan deyirik ki, Azərbaycan mentalitetinin dünyaya tanınmasında Nəbi Xəzrinin də özünün və əsərlərinin payı var”.

Coğrafiyaşünas-alim, akademik Budaq Budaqov isə Nəbi Xəzrinin poetik təfəkkürünün məğzində qloballığın dayandığını bildirib.

Şair özü isə 1944-cü ildə, 20 yaşında qələmə aldığı bir şeirdə ədəbiyyatda iz qoymaq üçün özünün yaradıcılıq məramnaməsini elan edirdi:

*Çalış, Nəbi, gecə-gündüz yarat sən,*
*Bəd sözləri öz sinəndən yar, at sən.*
*İnci seçib, dürr toplayıb yaratsan,*
*Səndən eldə bir nişanə qalar söz...*

Dekabrın 10-u Nəbi Xəzrinin doğum günüdür. Bu ərəfədə şairin həyat və yaradıcılıq yoluna oğlu Arzu Babayevlə nəzər salmaq istədik.

*– Arzu müəllim, atanızın 100 illiyinin qeyd edilməsi ilə bağlı sərəncam yəqin ki, ailə olaraq hamınızı çox sevindirdi.*

– Dövlət başçımız hər zaman sənət adamlarına, qələm sahiblərinə böyük diqqət və qayğı ilə yanaşıb, yüksək qiymət verib. Dövri mətbuatı mütəmadi izləyirəm. Sentyabrın 9-da bacım mənə sərəncamla bağlı xəbər verdi. Ailə olaraq çox böyük sevinclə qarşıladıq. Hətta mənə zəng edib təbrik edənlər də oldu. Bir daha fürsətdən istifadə edib dövlət başçımız İlham Əliyevə dərin minnətdarlığımı bildirirəm. Ulu öndər Heydər Əliyev də atamın yaradıcılığına hər zaman yüksək qiymət verib.

*– Nəbi Xəzrinin çap edilməyən ədəbi nümunələri varmı və onları ictimaiyyətə təqdim etməyi düşünürsünüzmü?*

– 2014-cü ildə son kitab çap olunandan sonra bir neçə şeirini də aşkar etdik. Ötən il “Qanun” nəşriyyatı Nəbi Xəzrinin seçilmiş şeirlərini çap etdi. Aşkar olunan şeirləri, yəqin ki, növbəti kitabda yer alacaq.

*– İndi isə atanızla bağlı xatirələrə yol alaq...*

– Mən həmişə onun ruhu qarşısında baş əyirəm. Mətbuata dəfələrlə müsahibə vermişəm və yenə də təkrarən demək istərdim ki, cəmiyyətin normal üzvü kimi yetişməyimdə onun verdiyi tərbiyənin rolu misilsizdir. O, əsl şair olduğu kimi, həm də əsl ata idi. Bizim evdə şair Nəbi Xəzri və bir də ata Nəbi Xəzri var idi. Atalığı da şeirləri kimi poetik idi. Verdiyi tərbiyədən böyük nəticələr çıxarmışam. Bəzən sərt olurdu, bəzən mülayim, bəzən də söhbəti izah edərək işləri yoluna qoyurdu. Çalışırdıq evdə elə edək ki, onun sərt üzünü görməyək. O bizi həmişə sanki öz poeziyası ilə tərbiyə edərdi. Çünki hər zaman başına yığıb ilk şeirlərini bizə oxuyardı. Poeziyasındakı zəriflik və həzinlik sanki ruhumuza da hopub, bizi formalaşdırıb. Bizi şair təbiətli böyüdüb.

*– Şair təbiətli demişkən, Nəbi müəllimin həyata baxışı necə idi?*

– Atam azərbaycançılığa və mentalitetimizə bağlı idi. Yenə qayıdıram bizə verdiyi tərbiyəyə. Onun ailədə qoyduğu qaydalar var idi. Həm müasir, həm də keçmişimizə bağlı, adət-ənənələrimizi yerinə yetirən və bizi də bu dəyərlərə sadiqliyə çağıran insan idi. Yəni milli köklərə çox bağlı idi.

*– O həm də ictimai xadim idi. Yazıçılıq, ailə, ictimai fəaliyyət. Ailəsinə vaxt ayıra bilirdimi?*

– Şənbə-bazar günü o bütünlüklə qələmə sarılırdı. Həmin günlər bizi atasının evinə, Xırdalana aparırdı və yeni şeirlərini oxuyurdu. Həmişə dövlət işində çalışıb. İşlərini çatdırırdı. Anam ona böyük dəstək olub. 1989-cu ildə anamı itirəndən sonra böyük sarsıntı keçirdi. Anamın o vaxt 57, atamın 65 yaşı var idi. Bu, atam üçün faciə idi. O, “Qadınsız ev” şeirində bu ağır itkini ifadə edib:

*Çiyinlərdə yerin-göyün qəmidir,*
*Ah çəkirsən asimana yetişir.*
*Qadınsız ev – tufandakı gəmidir,*
*O nə batır, nə limana yetişir...*

Atam ömrünün ondan sonrakı 17 ilini çox əzabla yaşadı. Biz onu nə qədər ovundururduqsa, olmurdu. Həyat şəraiti çox rahat idi, amma buna baxmayaraq bizə deyirdi ki, heç kim Güləreni əvəz edə bilməz. O, anama “Qəm dəftəri” adlı bir kitab həsr etdi. Orada yer alan şeirləri qüssəsiz oxumaq olmur. Anam ona dayaq idi. Bizim tərbiyəmizdə də ona dəstək idi. Evdar qadın olsa da, dünyagörüşü geniş idi. Bəlkə minə yaxın kitab oxumuşdu. Atamla hətta yaradıcı söhbətlər edir, Balzakın, Cek Londonun əsərlərini, dövri mətbuatı müzakirə edirdilər. Onların həm yaradıcı, həm də ailə-məişət söhbətlərində hər zaman bir harmoniya olurdu.

*– Atanız heç öz keçmişi barədə sizlərə danışırdı?*

– Doqquz yaşı olanda atasını itirmişdi. Üç qardaşı rəhmətə getmişdi. Atam ailənin sonbeşiyi olub. Bacıları atam hələ kiçik yaşlarında olanda ailə qurmuşdu. Bir bacısı iki ayın gəlini olanda həyat yoldaşı müharibəyə getmiş və qayıtmamışdı. Övladı da yox idi. O bibim heç vaxt ailə qurmadı, ölən gününə qədər həyat yoldaşının yolunu gözlədi. Atam ona “Bacım” poeması həsr edib. Atam “Ana”, “Bacı” və “Ömür yoldaşı” adlı trilogiya yazıb. Atam qədər anasını sevən ikinci bir şəxs görməmişdim. Nənəm 1969-cu ildə rəhmətə gedib. O vaxt yeddi yaşım var idi. İndiyə kimi atamın nənəmin başına pərvanə kimi dolanmağı yadımdadır. Mən bəlkə də anaya olan sevgini atamdan öyrəndim. Nənəm də çox qürurlu, bacarıqlı və mərd qadın olub. Babam imkanlı olub. Buna baxmayaraq babamın qəfil ölümü onu çaşqın etməyib. O, əziyyətdən çəkinməyib, xalça toxuyub satmaqla atamı Leninqrada və Moskvaya oxumağa yollayıb.

*– Ədəbiyyatşünaslar Nəbi Xəzrini lirik-fəlsəfi poemalar ustası adlandırırlar. Bayaq adlarını çəkdiyiniz, “Ana”, “Bacı”, “Ömür yoldaşı” poemaları da ümumilikdə Azərbaycan qadınlarının müqəddəsliyinə poetik himnlər kimi səciyyələndirilir...*

– Bəli. Atam 9 yaşında öz atasını itirəndə nənəm ona əsl dayaq olub. Onu oxutdurub. Özü də atama bir tapşırıq vermişdi. Demişdi ki, oxumağa tək gedirsən, tək də gəlirsən. Atam da ona “baş üstə, mömə” demişdi. Bakılılar anaya bəzən belə müraciət edirlər. Atam 1946-cı ildə Bakı Dövlət Universitetinə qəbul olunur, bir il oxuduqdan sonra Leninqrad Dövlət Universitetində təhsilini davam etdirir. 1949–1952-ci illərdə isə Moskvada Qorki adına Dünya Ədəbiyyatı İnstitutunda oxuyur. Orada təhsil aldığı zaman tanınmış şair-yazıçılarla dostluğu başlayır. Rəsul Həmzətov, Yevgeni Yevtuşenko, Robert Rojdestvenski, Sergey Vasilyev və Yeqor İsayev vaxtilə bizim evin qonaqları olublar. Atamın rus dilində 15 kitabı çap olunub. Həmin dövrün şairləri sırasında rus dilində ən çox nəşr olunan Nəbi Xəzri idi.

*– Bu istedad haradan gəlmişdi? Nəsildə yazar, yaxud sənət adamı olmuşdu?*

– Bibim bir dəfə demişdi ki, ulu babamız sinədəftər olub. O vaxt elə deyirdilər. Bədahətən şeir deyib, hekayə söyləyib. Yəqin gendən gəlib.

*– Dostlarından danışdınız. Onların arasında ən yaxınları kim idi?*

– Ən yaxın dostları Cabir Novruz və Qabil idi. Bir də Bakı Slavyan Universitetinin müəllimi var idi – Şükür Xanlarov. O sanki atamın mənəvi qardaşı idi. Bir də axı onlar 4 bacanaq idilər: Nəbi Xəzri, şair Məstan Günər, yazıçı İsa Muğanna, ədəbiyyatşünas Cəlal Abdullayev. Bir-birinin evinə doğma adamlar kimi gəlib-gedirdilər, yaradıcı söhbətləri çox olurdu. Şükür Xanlarov atamdan tez rəhmətə getsə də, atamın çətin anlarında həmişə yanında olmuşdu.

*– Atanız ömrünün son dövrlərində nə yazırdı?*

– Lirik və fəlsəfi şeirlər qələmə alırdı. Atam həmişə lirika və təbiət şeirləri yazıb. Onun “Dərələr” şeiri sanki təbiət tablosudur. Maraqlıdır ki, o, ölümü sanki bütün yaş dövrlərində xatırlayıb. 30 yaşında yazdığı “Naçar gedər” şeirinə Bəhram Nəsibov mahnı bəstələyib: “Şair Nəbi son nəfəsdə bu torpağı qucar gedər”. Ölümünə 15 gün qalmış bizi yığdı başına, gənc vaxtı yazdığı şeirləri oxudu və ağladı. Bəlkə də hiss etmişdi ki, ömrünün son günləridir. Ömrünün son beş ilini biz atamla dost və qardaş kimi idik.

*– Ən çox harada istirahət edirdi?*

– Deyirdi ki, mən bütün dünyanı gəzmişəm. Hər bir təbiəti görmüşəm. Amma bunların heç biri mənə Bakının dəniz və qumunu əvəz edə bilməz. Atam bağda əkin edərdi və mənə də işlər gördürərdi. Məni ərköyün böyütmürdü. Çalışırdı zəhmətə öyrətsin. Buna görə də ona hədsiz minnətdaram.

*– İlk əmək fəaliyyətinə radioda başlamısınız. Nəbi müəllim peşə seçiminizə müdaxilə etdimi?*

– Xeyr, o mənə heç bir qadağa qoymurdu. İki ali təhsil almışam: şərqşünaslıq və hüquq. 22 yaşımda təyinatla Azərbaycan Radiosuna gəldim. Beş il işləyəndən sonra sənədlərimi daxili işlər orqanlarına verdim. 32 il polis zabiti olmuşam.

*– Şair oğlu üçün bu sahə çətin deyildi ki?*

– (gülür) Şair təbiətli polislərimiz azdır.

*– Atanızın ədəbi düşüncələri maraqlıdır. Ən çox kimləri oxuyardı?*

– Əliağa Vahidə böyük sevgisi var idi. Cəfər Cabbarlını əzbər bilirdi. Dünya klassiklərinin, demək olar ki, hamısını mütaliə etmişdi. Eyni zamanda gəncləri də oxuyub məsləhətlərini əsirgəmirdi. Atam deyirdi ki, bütün təfəkkür də, dünyagörüşü də, dünyaya çıxmaq da mütaliədən gəlib keçir.

*– Nəbi Xəzrinin 100 illik yubileyi ilə bağlı nə kimi işlər görülür?*

– Möhtərəm Prezidentimizin bununla bağlı sərəncamı var. Yazıçılar Birliyi də yubileylə bağlı təklifini Mədəniyyət Nazirliyinə təqdim edib, yəqin ki, yaxın vaxtlarda tədbirlə bağlı mətbuata açıqlama veriləcək. Çox istərdim ki, “Dan ulduzu” ansamblı bu tədbirdə iştirak etsin. Atamın sözlərinə 200-dən çox mahnı yazılıb. Onlardan 130-dan çoxu fonddadır. Milli Konservatoriyanın professoru Abbasqulu Nəcəfzadə atamın yubileyinə kitab hazırlayır – “Musiqiyə bələnmiş misralar”. Onunla araşdırma apardıq. Bu kitab üçün bəzi şeirlərin əlyazmasını tapmırdıq. “Mən zəfərlə gələcəyəm” mahnısı var, onun mətnini Salman Mümtaz adına Ədəbiyyat və İncəsənət Arxivindən tapdıq. Bu mahnının musiqisini görkəmli bəstəkarımız Şəfiqə Axundovanın oğlu rəhmətlik Taleh Hacıyev yazıb.

*– Maraqlı söhbətə görə təşəkkür edirəm.*

– Mən də diqqətinizə görə minnətdaram, “Mədəniyyət” qəzetinin redaksiya heyətinə uğurlar arzulayıram.

**Lalə Azəri**

“Vətən fədailəri”

# “Oğlum son nəfəsini verənədək Allahdan mənə səbir diləyib...”

Şəhidlər qanları, canları ilə tarix yazdılar. Torpağa düşən hər bir damla qan bir millətin sabahına işıq oldu. Bəlkə də, çoxumuz onların son dəfə sevdiklərinə necə sarıldıqlarını heç təsəvvürə belə gətirə bilmirik... Ancaq məlum olan bir şey var ki, hər bir şəhidin qəlbindəki qəhrəmanlıq atəşi azad etdikləri torpaqlarımızda atdıqları ilk addımlarda parladı...



“Vətən fədailəri” rubrikasında bu dəfə şəhid İslam Dünyamalıyevdən söz açacağıq.

İslam Teymur oğlu Dünyamalıyev 2004-cü il iyunun 25-də Kürdəmir rayonunun Muradxan kəndində anadan olub. Məmiş Abdullayev adına Muradxan kənd tam orta məktəbini bitirdikdən sonra əsgərliyə gedib.

2023-cü ilin 19-20 sentyabr tarixlərində düşməni doğma yurdumuzdan tamamilə təmizləmək, uzun illərdir Qarabağda kök salmış erməni separatizminin axırına çıxmaq məqsədilə müzəffər Ordumuz tərəfindən lokal xarakterli antiterror əməliyyatı həyata keçirildi. İslam da bu şərəfli missiyada iştirak etdi, Ağdərə rayonunun Sırxavənd kəndində şəhidlik zirvəsinə yüksəldi.

Doğulduğu Muradxan kənd qəbiristanlığında torpağa tapşırılan İslam Dünyamalıyev ölümündən sonra ölkə başçısının müvafiq sərəncamları ilə 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni və “Vətən uğrunda” medalı ilə təltif edilib.

Anası Gülşən Dünyamalıyeva İslamı və digər oğlunu çətinliklərlə böyütdüyünü deyir: “İslamın atası Teymur Dünyamalıyev şəhid balamın 6 yaşı olanda ürək çatışmazlığından dünyasını dəyişdi. İslamı və digər oğlum Həsəni öz zəhmətimlə böyütmüşəm. Həsən İslamdan 7 yaş böyük idi. O, 2016-cı ilin Aprel döyüşlərində iştirak edərək böyük şücaət göstərmişdi”.

Gülşən ana İslamla sonuncu dəfə 2023-cü il sentyabrın 14-də əlaqə saxladığını deyir: “Sonuncu danışığımızda mənə “Ana, biz qəhrəman olmağa gedəcəyik. Əgər qismət olsa, sağ-salamat gələrəm. Amma şəhid olsam, ağlama, Vətən sağ olsun!” dedi. Mənimlə və qardaşıyla halallaşdı. Döyüşlər zamanı İslam qolundan yaralansa da, sonadək qəhrəmancasına döyüşərək şəhadət şərbətini içdi. Silah yoldaşlarının dediyinə görə oğlum son nəfəsini verənədək uca Allahdan mənə səbir diləyib...”.

Şəhidin qardaşı Həsən bildirir ki, İslam ondan yaşda kiçik olsa da, ona ata deyə müraciət edirmiş: “2014-cü ildə mən hərbi xidmətə gedəndə anamı İslama əmanət etdim. Onun yaşı az olsa da, kənddə işləyib anama köməklik edirdi. Hətta mən Aprel döyüşlərində olanda anamın göz yaşlarına dözməyib ona deyib ki, qoy böyüyüb əsgər gedim, qardaşımı incidənlərin cəzasını verəcəyəm. Bizim evimiz yox idi. Əsgərlikdən qayıdandan sonra İslamla əl-ələ verib ev tikdik. İslam həmişə deyirdi ki, anamı elə yaşadacağam ki... Mən həmişə qardaşımla fəxr edirdim, indi lap çox fəxr edirəm. İslam bizim başımızı ucalardan uca elədi...”.

Şəhidin bibisi oğlu Asif Musayev İslamın anasına çox bağlı olduğunu deyir: “Ona demişdim ki, gəlsin mənimlə birgə işləyək. İslam anasına çox bağlı olduğu üçün deyirdi ki, mən sizdə qalsam, anam bəs necə olacaq? Əsgərlikdə olan zaman İslamın yanına tez-tez gedirdim. Ətraflı hal-əhval tuta bilmirdim. Elə bil şəhid olacağını hiss etmişdi. Deyirdi ki, mənə nəsə olsa, anam nə edəcək? Allah bütün şəhidlərimizə rəhmət eləsin...”.

Ruhu şad olsun.

**Nurəddin**

# Kino salnaməmizdə izi qalanlar: TOFİQ TAĞIZADƏ

Görkəmli kinorejissor, Xalq artisti Tofiq Tağızadə milli dəyərlərin sıxışdırıldığı bir dövrdə sənətə gəlib və dolğun yaradıcılıq fəaliyyəti ilə kinomuza yeni nəfəs bəxş edib. Eyni zamanda dünya kinematoqrafiyasının mütərəqqi təcrübəsindən yaradıcı şəkildə bəhrələnib. Sənətkarı anadan olmasının 105 illiyi münasibətilə xatırlayırıq.



Tofiq Mehdiqulu oğlu Tağızadə 7 fevral 1919-cu ildə Bakının Keşlə qəsəbəsində müəllim ailəsində dünyaya göz açıb. Şəhər mühiti onda erkən çağlardan kino, teatr və musiqiyə dərin maraq doğurur. Orta məktəbi bitirib Energetika Texnikumuna qəbul olunur. Paralel olaraq musiqi məktəbində də oxuyur. 1938-ci ildə indiki Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Energetika fakültəsində təhsil almağa başlayır. Üçüncü kursda oxuyarkən II Dünya müharibəsi başlayır. Həmyaşıdları kimi ordu sıralarına yazılır. Rostov yaxınlığında gedən ağır döyüşlərin birində yaralanır və arxa cəbhəyə göndərilir.

Müharibə başa çatdıqdan sonra Vətənə qayıdan Tofiq Tağızadə Moskvada Kinematoqrafiya İnstitutunun Kinorejissorluq fakültəsində təhsilini davam etdirir.

Məzun olduqdan sonra təyinatla “Mosfilm” kinostudiyasında fəaliyyətə başlayır. Bir müddət Moskvada çalışdıqdan sonra öz arzusu ilə Bakıya qayıdır və C.Cabbarlı adına “Azərbaycanfilm” kinostudiyasında işə düzəlir.

Tofiq Tağızadə gəlişi ilə milli kino tariximizdə yeni səhifələr açır. 1955-ci ildə çəkdiyi “Görüş” filmi ilə Azərbaycan kinosuna yeni üslub gətirir. “Görüş” filmi böyük maraqla qarşılanır. Ekran əsərinin mövzusu sevgi, sovet rejiminin əməyə çağırışı və bir-biri ilə yarışan Azərbaycan və Özbəkistan pambıqçılarının ənənəvi dostluğunu əhatə edir. Filmin mərkəzində iki gəncin – özbək qızı Lala ilə azərbaycanlı Kamilin saf məhəbbəti durur. Rejissor “Görüş”də milli-mənəvi dəyərlərə geniş yer ayırıb. Həyatda tez-tez rast gəlinən problemləri ekrana gətirib. Bu problemlərin ekran həlli tamaşaçını həm düşündürür, həm də güldürür.

Ancaq mətbuatda dərc olunan rəylərdə filmə münasibət birmənalı olmur. Buna cavab olaraq rejissor müsahibələrinin birində deyir: “Görüş” bədii filmi həmin dövrlə bağlı yadımıza çox şey salır. Film Moskvada ali kino institutunu bitirib Bakıya qayıdandan sonra çəkdiyim ilk film oldu. Janrına görə kinokomediyadır. Burada komik aktyorların olması vacib idi. Məncə, filmdə aktyor seçimində səhv etməmişəm”.

Bu uğuru onu həmişəlik kino sənətinə bağlayır. O, “Uzaq sahillərdə” (1958), bir il sonra lentə aldığı “Əsl dost” filmləri ilə milli kinomuza yeni nəfəs verir.

“Uzaq sahillərdə” filmi ekranlara çıxdığın ilk gündən böyük maraqla qarşılanır. Mehdi Hüseynzadənin bacısı Bikə xanım filmə baxandan sonra belə deyib: “Filmə baxarkən qardaşımın uzaq ellərdə çəkdiyi əziyyəti, od-alov içində necə vuruşduğunu görürəm. Şirin söhbəti və mehriban gülüşü ilə evimizi bəzəyən qardaşımı sanki heç ölməmiş kimi gördüm. Az qala onu yenə bağrıma basıb öpəcək, evimizə aparacaqdım”.

Görkəmli rejissor ömrünün 40 ilə yaxın bir dövrünü kinoya həsr edib. Çəkdiyi filmlərdə Azərbaycanın tarixi, mədəniyyəti və məişəti sənətkarlıqla əksini tapır.

“Mən ki gözəl deyildim” (1969) filmi II Dünya müharibəsi illərində xalqımızın keçdiyi çətin həyat yolundan bəhs edir. Filmdə tamaşaçı iki gəncin sərt müharibə qanunları qarşısında yaşamaq mübarizəsini görür. Rejissor filmin qəhrəmanları Səidə və Məzahirin timsalında müharibə dövrü gənclərinin ümumiləşmiş obrazını yaradıb.

Rejissorun “Dədə Qorqud” dastanının motivləri əsasında Xalq yazıçısı Anarın ssenarisi ilə 1975-ci ildə çəkdiyi film Türk dünyasının ortaq mədəniyyət abidəsi olan folklor nümunəsindəki mədəni zənginliklər tamaşaçıya çatdırılır.

Tofiq Tağızadənin “Yeddi oğul istərəm” (1970) filmi də diqqətəlayiq nümunələrdəndir. Filmdə dövrün siyasi mənzərəsi arxa planda qalır. Rejissor hadisələrə başqa yön verir. Gəray bəy, Bəxtiyar, Cəlal və digər obrazların gərgin münaqişə fonunda səhnə təcəssümünü yaradır.

Görkəmli rejissor Cəlil Məmmədquluzadənin yaradıcılığına da maraq göstərir. “Ölülər” tragikomediyası üçün ssenari də yazır. Ancaq onu reallaşdırmağa imkan olmur. Nəhayət, 1991-ci ildə istəyinə nail olur, “O dünyadan salam” filmini çəkir.

Rejissor müxtəlif illərdə “Mateo Falkone”, “Arşın mal alan” (1965), “Babamızın babasının babası”, “Bağ mövsümü”, “Qızıl qaz”, “Zirzəmi”, “Köpək” və digər ekran əsərləri ilə kino tariximizi zənginləşdirib.

Tofiq Tağızadənin Azərbaycan kinosunun inkişafında xidmətləri yüksək qiymətləndirilib. 1964-cü ildə “Əməkdar incəsənət xadimi”, 1976-cı ildə “Xalq artisti” fəxri adlarına layiq görülüb. Ömrünün müdrik çağlarında xüsusi studiya yaradan rejissor istedadlı sənət dostlarını ətrafına toplayır, yeni layihələr ortaya qoymaq istəyirdi. Ömrü vəfa etməyib...

Tofiq Tağızadə 27 avqust 1998-ci ildə, 79 yaşında vəfat edib. II Fəxri xiyabanda dəfn olunub. Kino salnaməmizdə parlaq iz qoymuş sənətkarın 100 illik yubileyi 2019-cu ildə dövlət səviyyəsində qeyd edilib.

**Savalan Fərəcov**

# Muzey Mərkəzində “Bakının peyzajları”

## Mərhum rəssam İsa Məmmədovun sərgisi




Dekabrın 6-da Muzey Mərkəzində Əməkdar rəssam İsa Məmmədovun (1956–2024) xatirəsinə həsr olunmuş “Bakının peyzajları” adlı sərgi açılacaq.

Sərgi Mədəniyyət Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti, Azərbaycan Rəssamlıq Akademiyası, Muzey Mərkəzi, Rəssamlar İttifaqı və Qərbi Azərbaycan İcmasının dəstəyi ilə təşkil olunur.

Ekspozisiyada rəssamın özünəməxsus üslubda kətana köçən Dənizkənarı Milli Park, Nizami küçəsi, Vağzal meydanı, Fəvvarələr meydanı və Bakının bir çox başqa məkanlarını əks etdirən 60 əsər nümayiş etdiriləcək.

İsa Məmmədov 1956-cı ilin 5 martında Zəngəzur mahalının Qafan rayonunda dünyaya göz açıb. İncəsənətə kiçik yaşlarından həvəs göstərib, məktəb illərində rəssamlıq və musiqi ilə məşğul olub. 1979-cu ildə Əzim Əzimzadə adına Rəssamlıq Məktəbini bitirib. Sonra bir müddət Moskvada da rəssamlıq dərsləri alır. Qayıtdıqdan sonra 1982-ci ildə indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Rəngkarlıq fakültəsinə daxil olur.

Yaradıcılığında müxtəlif janrlara müraciət etsə də, daha çox mənzərəyə üstünlük verən rəssam bu janrda rəngarəng tablolar ərsəyə gətirib. Böyük şəhərdə yaşayıb, uşaqlıq və gənclik illərinin keçdiyi, amma əlinin çatmadığı yerlərlə bağlı xatirələr onu heç vaxt tərk etməyib. Azərbaycanın rayonlarına tez-tez səfər edib, silsilə tablolar çəkib.

Rəssamın əsərləri arasında xüsusi yer tutan Bakı mənzərələri də həm şəhərin səs-küyündən, həm də hər hansı bir meqapolisə xas olan həyat ritminin sərt təsvirindən məhrumdur. Onun tabloları təbiətin sevimli guşələrinə, Bakının görməli yerlərinə olan ehtiramlı münasibət, sevgi və hərarət ilə seçilir, bu mənzərələrin ruhu tamaşaçılara da sirayət edir.

Azərbaycan Rəssamlıq Akademiyasında pedaqoji fəaliyyət də göstərmiş Əməkdar rəssam İsa Məmmədov bu il iyunun 22-də, 68 yaşında vəfat edib.

# Fərman gəldi ki...

## Yaddaşlardakı yerini də heç kimə vermədi

Onun haqqında illər əvvəl, səhv etmirəmsə, ölümündən bir neçə gün sonra yazmışdım. Özümü buna borclu bilmişdim. Çünki vədələşdiyimiz müsahibəyə zaman və ömrü vəfa etməmişdi. Özümü xeyli danlamışdım.

Onu elə son dəfə də səhnədə – Azərbaycan Teatr Xadimləri İttifaqında festivalla bağlı tamaşada görmüşdüm deyə aktyor və insan itkisinin qütbləşməsində sarsılmışdım. Kədərimə ifadə forması belə seçə bilməmişdim. Ağlamalı anlarda gülməklə edilən amansız etiraz kimi. Necə? Onu illər əvvəl özünün verdiyi müsahibədən sitatlarla izah edəcəyəm...

Sonralar anladım ki, səhnədə gülən, özü gülməklə güldürməyi bacaran kədərli adamlar bəxtəvərdir. Çünki dərin hüznün, ağır maddi və mənəvi iztirabın, istedada tərs-mütənasib yaradıcı uğursuzluq, peşənin, sevgi ilə seçilən sənətin zamansızlıq girdabında həqiqi dəyərini almamaq ağır mətləbdir. İllah da o tale ilə barışırmış kimi görünmək. Bu mənada onu da bəxtəvərlər bəxtəvəri saymaq olardı. Nə qədər ironik səslənsə də...

Mənə görə, Fərman Şəkili ömrü boyu mübarizə apardı. Həm özü, həm də özündən qopan və zaman-zaman özünə qarşı dayanan əzmi ilə. Buna qüruru, sınmamağı, qapılar döyməməyi, ağlayıb-sıtqamamağı da əlavə eləsək, əlamət bir tamaşa alınır.

Özünün də dediyi kimi: “Mən doğrudan ampluasız aktyoram. “Şurum-burum”u da gözəl oynaya bilirəm, Teymurləngi də… Özü də Cavidin yox, Kristofor Marlokun Teymurləngini. Mixail Şvıdkoyun resenziyası var bu rolum barədə. Moskvada oynamışam”...

İndi 70 yaşına çatıb ömür yolunu 58-də qırılan bəstəboy milli Çarli Çaplinimiz. Düzdür, xarici görünüşünə görə onu “Xaç atası”na bənzədənlər də çoxdur. Amma məncə, o bizim Çaplindir...

Hamı ondan danışıb. Bəlağət, ya da bəraət üçün bir sıra ilklikləri adına yazıb daldan atılan daş misalı könlünü almaq cəhdlərində olanlar daha çox olub. Amma o özü də yaxşı bilirdi ki, sözün bütün çərçivələrində aktyor idi və səhnə, kinoekran üçün yaranmışdı. Həm də onu bilirdi ki, doğru olmayan zaman və məkanda doğulmuşdu. Məhz ona görə də Azərbaycan kino, teatr, televiziya mühiti üçün “Şurum-burum”la eyhamlı bir obraz qoydu.

Ömür yoluna qısa nəzər salaq. Fərman Abdulcabbar oğlu Abdullayev (Şəkili) 4 noyabr 1954-cü ildə Şəkidə anadan olub. Gürcüstanda Mixail Tumanişvilinin aktyorluq kursunda təhsil alıb. 1975-ci ildən professional səhnədə olub. Şəki Dövlət Dram Teatrında çalışıb. Quruluş verdiyi tamaşalar beynəlxalq festivallarda mükafatlara layiq görülüb. “Dahi” adlı pantomim pyesin müəllifidir. 1980-ci ilin əvvəllərində oynanılan bu pyes o zaman xeyli səs gətirib. Həyatı mübarizələrdə keçən aktyor xərçənglə cəmi 11 ay döyüşdü. 5 mart 2013-cü ildə son rolunu oynadı və getdi...

Şəki Dövlət Dram Teatrında çalışdığı illər bu sənət ocağının “qızıl dövrü” olub. Kollektivlə qastrollara gedib, festivallarda seçilməyi bacarıb. Sonra səs-küysüz teatrı tərk edib, Bakı mühitində özünə yaradıcı meydan axtarmağa başlayıb.

80-ci illərin ortalarında kinoda onun da üzünə, kiçicik də olsa, bir pəncərə açılıb. 1986-cı il istehsalı “Aşkarsızlıq şəraitində” filmi ilə.



Onu çox vaxt Azərbaycanda klounada sənətinin yaradıcısı kimi də təqdim edirlər. Sözsüz ki, kütləvi şəkildə edilən bu yanlışlıqla bağlı bir qeydə ehtiyac var. Azərbaycanda ilk klounlar 1945-ci ildə yaradılmış sirk kollektivində olub. Bunlar Qasım və Bibi oğlu obrazlarıdır. O ki qaldı Fərman Şəkiliyə, bəli, 90-cı illərdə onu televiziya klounadamızda ilklərdən saymaq olardı.

Onun aktyor yaradıcılığı zəngin olsa da, kütləvi tamaşaçı ilə ünsiyyəti “Şurum-burum”, “Xoş beş-on beş” adlarıyla yarandı. Beləcə, yaddaşlarda həkk olundu Fərman Şəkili.

Orda intriqa əmələ gəlir. Xaricdə belə deyil. Aktyor birjasında minlərlə aktyor olur. Amma tamaşaya, məsələn, altı aktyor lazım olur. Deməli, həmin aktyorlar çalışır ki, altı nəfərdən biri, heç olmasa, o olsun. Ona görə məcburdur öz üzərində işləsin, heç kimin ardınca danışmasın. Buna heç onun vaxtı da yoxdur. Və sabah da mənim kimi adam gəlib tamaşa qurmaq istəyəndə birjadan özü istədiyi aktyoru tapa bilir...”.

Zaman-zaman qarşılaşdığı maneələr, bəlkə də, özünün də eyham vurduğu kimi, “başını girlə”məmək onu tez-tez bezdirsə





Aktyor o filmə çəkilməsi ilə bağlı maraqlı tarixçə də danışıb: “Bir dəfə “Azərbaycanfilm” kinostudiyasından Şəki teatrına Elmira Əliyeva zəng vurdu. Dedi ki, biz getmişdik Moskvaya, orda bizə dedilər ki, Şəkidə belə bir aktyor var. Əlavə etdi ki, biz sizi tanımırıq, şəklinizi göndərə bilərsiniz? Baxaq görək sir-sifətiniz nə təhərdi. Baxın, mənim Azərbaycanda filmə düşməyim “çerez” Moskva olub. Problemlərdən necə danışmayım? Nə isə... Əvvəlcə “Aşkarsızlıq şəraitində” filmində çəkildim. Ramiz Fətəliyevin ssenarisi əsasında Fərhad Yusufov çəkdi...”.

Sonralar irili-xırdalı olmaqla “Boş yer”, “Zirzəmi, “Fransız, “Həm ziyarət, həm ticarət...”, “Otel otağı”, “Sarı gəlin”, “Yalan”, “Günaydın, mələyim!”, “İstanbul reysi” filmlərində rol aldı.

Taleyin qisməti bu olsa gərək. Onun son filmi oğlu rejissor Elvin Abdullanın kinoda debütü idi: “Özgə günah”...

Bakıdakı sənət ictimaiyyəti isə onu Teatr Xadimləri İttifaqının monotamaşalar festivalında “Hamlet” tamaşası ilə kəşf etdi, hətta “Qran-pri”ni də o aldı.

Kədərlidir, amma 2005-ci ildə verdiyi müsahibədə həyəcan təbili çalırdı. Eşidənlər az olsa da, qaldırdığı məsələlər hələ də çağdaşdır: “Mən maksimalistəm. İşləyiriksə, tam işləyirik, işləmiriksə, heç işləmirik. Nə bilim, gəl, başını girlə, başını dolandır, belə yox. Teatrda bu dəqiqə mənim verdiyim quruluşları verməkdən ötrü heç bir şərait yoxdur. Üstəlik, yaradıcı şərait də məni qane eləmir. Bu dəqiqə səhnə yeni texnika, yeni işıqlar tələb edir. Aktyor da həmişə formada olmalıdır. Aktyoru da formada saxlayan aktyor birjasıdır ki, bütün dünya yalnız bununla məşğuldur. Heç kim öz teatrında daimi truppa saxlamır. O, lazımsız, gərəksiz bir şeydir. Biri gəlib girir ora işə. Sonra qalır illərlə orada. Adam orada kök atır, sonra cavanları da işləməyə qoymur. Özü də işləyə bilmir.

də, inamını, sevgisini və həvəsini itirmədi. Xəstəliklə boğuşanda da ssenari haqqında düşünüb, film çəkmək üçün vəsait axtardı. İllərlə üzərində işlədiyi “Əyri ağac”ın qəhrəmanı tabutdüzəldən kişi idi...

“Mən dini kitabları yaxşı oxumuşam. Heç bir din günah bağışlaya bilmir. Yalnız Allah bağışlayır günahı. Allahın yanına kim hansı yolla gedirsə, qoy getsin. Bunun mənimçün heç bir əhəmiyyəti yoxdur. Təki, qəlbində Allah olsun. Ona görə mənimçün fərqi yoxdur, bu, müsəlmandır, xristiandır, nədir. İnsan balasıdır da! Buddizmdə deyilir ki, ən yaxşı elm də pis adamın əlinə düşəndə pis iş görür. Onu deyim ki, bütün haqsızların qarşıda haqq-hesabı var. Allaha inanmayandan sonra haqsızlıq etməyə nə var ki…” deyən və həyatı şah fərmanı sayaq müzakirəsiz yaşayan Fərman Şəkili yaddaşlardakı yerini də heç kimə vermədi. Özü və özgələrə inad...

**Həmidə Nizamiqızı**

## Xatirə təqvimi — 2 – 5 dekabr

### Azərbaycan

**2 dekabr 1929** – Şair, ədəbiyyatşünas, pedaqoq Həsənəli xan Qaradaği (1848–1929) vəfat edib. Şuşada doğulub. Qori Müəllimlər Seminariyasının müəllimi Aleksey Çernyayevski ilə birgə Azərbaycan dilində “Vətən dili” dərsliyini (1882) hazırlayıb.

**2 dekabr 1938** – Şair, publisist, Əməkdar jurnalist Zeynal Vəfa (Zeynalabdin İsmayıl oğlu Zeynalov; 1938 – 14.3.2024) Naxçıvan şəhərində anadan olub.

**2 dekabr 1966** – Əməkdar artist Atamoğlan Balababa oğlu Rzayev (1912–1966) vəfat edib. Akademik Milli Dram Teatrının aktyoru olub, filmlərdə (“Kəndlilər”, “Koroğlu”) çəkilib.

**2 dekabr 2002** – Əməkdar artist, vokalçı Rəhilə Muxtar qızı Cabbarova (24.11.1922 – 2002) vəfat edib. Opera və Balet Teatrının solisti olub, Mədəniyyət və İncəsənət Universitetində dərs deyib.

**2 dekabr 2002** – Prezident Heydər Əliyev “Azərbaycan Respublikasında arxiv işinin təkmilləşdirilməsi haqqında” fərman imzalayıb.

**3 dekabr 1918** – Aktyor, rejissor, teatr təşkilatçısı Əbülfət Məmmədhəsən oğlu Vəli (1867–1918) vəfat edib.

**3 dekabr 1920** – Şair, qəzəlxan Ələkbər Şahid (Ələkbər Şahbaz oğlu Axundov; 1920 – 12.12.1999) anadan olub.

**3 dekabr 1937** – Əməkdar mədəniyyət işçisi, kinoşünas Natalya Borisovna Şneyer (1937–2019) anadan olub.

**3 dekabr 1992** – Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə Yuğ teatr-studiyasına dövlət statusu (1 yanvar 1993-cü ildən) verilib. Teatrın yaradıcısı tanınmış aktyor, rejissor Vaqif İbrahimoğlu idi.

**3 dekabr 1996** – Xalq artisti, görkəmli teatr və kino aktyoru Məlik Yusif oğlu Dadaşov (7.6.1924 – 1996) vəfat edib. Akademik Dram Teatrında çalışıb. Rus Dram Teatrının direktoru (1989–1991) olub.

**3 dekabr 1997** – Respublika Sarayında Azərbaycan professional vokal sənətinin banisi Bülbülün 100 illiyinə həsr olunmuş təntənəli yubiley gecəsi keçirilib. Prezident Heydər Əliyev mərasimdə çıxış edib.

**3 dekabr 2020** – Əməkdar rəssam Rafael Abbas oğlu Abbasov (28.11.1943 – 2020) vəfat edib. Portretlər, süjetli tablolar, Abşeron və Naxçıvanın təbiətini tərənnüm edən mənzərələrin müəllifidir.

**4 dekabr 1979** – Xalq artisti Sona Salman qızı Hacıyeva (25.6.1907 – 1979) vəfat edib. Akademik Dram Teatrının aktrisası olub. “Bəxtiyar”, “O olmasın, bu olsun”, “Qızmar günəş altında”, “Səhər” filmlərində çəkilib.

**5 dekabr 1906** – Xalq artisti Əşrəf Əmrah oğlu Yusifzadə (1906 – 7.3.1963) Naxçıvanın MR Şərur rayonunun Sərxanlı kəndində doğulub. Bakı Türk İşçi Teatrında, Gəncə Dram Teatrında çalışıb, filmlərdə (“Səhər”, “Kölgələr sürünür”) çəkilib.

**5 dekabr 1912** – Əməkdar incəsənət xadimi, rəssam Sadıq Hüseyn oğlu Şərifzadə (1912 – 2.1.1986) Təbrizdə anadan olub. Əsərləri: “Səttarxan fədailəri Təbrizdə”, “Sərkərdə Babəkin portreti”, “Nəsiminin portreti”, “M.Ə.Sabirin portreti” və s. Teatr tamaşalarına bədii tərtibat verib.

**5 dekabr 1921** – Tanınmış aktyor, Xalq artisti Həsənağa Dərya oğlu Salayev (1921 – 2.10.1981) anadan olub. Akademik Milli Dram Teatrında çalışıb. “Görüş”, “Onu bağışlamaq olarmı?”, “Aygün” və s. filmlərdə yaddaqalan obrazlar yaradıb.

**5 dekabr 1924** – Kinorejissor, Əməkdar incəsənət xadimi, Dövlət mükafatı laureatı Şamil Fərəməz oğlu Mahmudbəyov (1924 – 20.5.1997) anadan olub. “Qaraca qız”, “Romeo mənim qonşumdur”, “Şərikli çörək”, “Həyat bizi sınayır” və s. filmlərə quruluş verib.

**5 dekabr 1924** – Əməkdar artist Şəfiqə Qasım qızı Qasımova (1924 – 3.4. 2008) Bakıda anadan olub. Musiqili Komediya, Opera və Balet teatrlarında çalışıb, filmlərdə çəkilib.

**5 dekabr 1925** – Xalq rəssamı, Dövlət mükafatı laureatı, professor Nadir Qənbər oğlu Əbdürrəhmanov (1925 – 26.7.2008) Laçın rayonunda doğulub. “Sevimli naxışlar”, “Çəltikbecərənlər”, “Dağlarda bahar” və s. Azərbaycan Rəssamlar İttifaqı idarə heyətinin sədri olub.

**5 dekabr 1927** – Yazıçı, Əməkdar mədəniyyət işçisi Cəmil Adil oğlu Əlibəyov (1927 – 26.10.2014) Füzuli rayonunun Dədəli kəndində doğulub. “Azərbaycanfilm”in direktoru olub. “Həyatın özü”, “İlk məhəbbət” romanları, “Gülüstanda qətl” pyesi və s. əsərlərin müəllifidir. Rus dilindən ədəbi tərcümələr edib.

**5 dekabr 1927** – Yazıçı, şair İsmayıl Abuzər oğlu Qarayev (1927 – 9.101989) Goranboy rayonunun Tap Qaraqoyunlu kəndində anadan olub. “Gənclik” nəşriyyatında baş redaktor işləyib.

**5 dekabr 1934** – Əməkdar artist, pianoçu Rafiq Teyyub oğlu Quliyev (1934 – 19.8.2007) Bakıda doğulub. Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru olub.

**5 dekabr 1941** – Böyük şair, dramaturq Hüseyn Cavid (Hüseyn Abdulla oğlu Rasizadə; 24.10.1882 – 1941) vəfat edib. Azərbaycan ədəbiyyatında ilk mənzum dramların, tarixi-fəlsəfi pyeslərin müəllifidir. 1938-ci ildə repressiya edilərək Sibirə sürgün olunub, İrkutsk vilayətində dünyasını dəyişib.

**5 dekabr 1947** – Xalq artisti Larisa Afanasyevna Vinoqradova (1947 – 16.9.2009) Türkmənistanın Marı şəhərində anadan olub. Azərbaycan Dövlət Akademik Musiqili Teatrında çalışıb, televiziya tamaşalarında çəkilib.

### Dünya

**2 dekabr 1888** – Türk yazıçısı, şair Namiq Kamal (21.12.1840 – 1888) vəfat edib. Əsərləri: “İntibah”, “Cezmi”, “Cəlaləddin”, “Şah” və s.

**2 dekabr 1891** – Alman boyakarı və qrafiki Otto Diks (1891–1969) anadan olub.

**2 dekabr 1923** – Yunan əsilli Amerika opera müğənnisi (soprano) Mariya Kallas (Maria Callas – Sophia Cecelia Kalos; 1923–1977) anadan olub.

**3 dekabr 1927** – Amerika estrada müğənnisi və aktyor Endi Vilyams (Howard Andrew Williams; 1927–2012) anadan olub.

**3 dekabr 1930** – Fransız kinorejissoru, aktyor, ssenarist Jan-Lük Qodar (Jean-Luc Godard; 1930 – 13.9.2022) anadan olub. Fransa kinosunda “yeni dalğa”nın banilərindən biridir. Filmləri: “Kiçik əsgər”, “Motsart – həmişəlik”, “Birnəfəsə”, “Ağılsız Pyero” və s.

**4 dekabr 1875** – Avstriyalı ekzistensialist şair Rayner Maria Rilke (Rainer Maria Rilke; 1875–1926) anadan olub.

**4 dekabr 1896** – Rus şairi, yazıçı Nikolay Semyonoviç Tixonov (1896–1979) anadan olub. Azərbaycan şairlərinin əsərlərini rus dilinə tərcümə edib.

**5 dekabr 1791** – Dünyaşöhrətli Avstriya bəstəkarı Volfqanq Amadey Motsart (Wolfgang Amadeus Mozart, 27.1.1756 – 1791) vəfat edib.

**5 dekabr 1901** – Amerikalı multiplikasiya rəssamı, rejissor, prodüser Uolt Disney (Walter Elias “Walt” Disney; 1901–1966) anadan olub. Cizgi filmləri üzrə 26 dəfə “Oskar” mükafatına layiq görülüb.

**Hazırladı: V.Orxan**

# “Şaxtababa” üşüyəcək!...

Sizə kimdən deyim, kimdən danışım – bapbalaca Mətindən. O, hələ məktəbə getmirdi. Həm evlərində, həm də yaşadığı məhəllədə hamıdan kiçik olduğu üçün hər kəsin sevimlisi idi. Şirin dili, bəzən uşaqlar tərəfindən anlaşılmayan fərqli hərəkətləri onu daha çox sevdirirdi.



Qış səhəriydi. Hər tərəf ağ rəngə boyanmışdı. Qar hələ də aravermədən yağırdı. Uşaqların sevincinin həddi-hüdudu yox idi, səs-küyləri həyəti bürümüşdü. Kimi qartopu oynayır, kimi “şaxtababa” düzəldirdi. Lap körpə uşaqları isə valideynləri həyətdə gəzdirirdi.

Balaca Mətin həyətdəki səs-küyə oyanıb pəncərədən boylandı. Qar yağdığını, bütün həyətin ağappaq olduğunu görəndə çox sevindi. Yeməyini yeyib tez həyətə qaçdı. O, balaca dostları ilə qartopu oynadı. Böyük “şaxtababa” düzəldib ətrafında doyunca oynadılar. Mətin birdən üşüdüyünü, əllərinin sanki donduğunu hiss elədi və ağlayaraq evlərinə qaçdı. Bu balaca oğlan nə qədər üşümüşdü ki, soyuqdan tir-tir əsirdi. Hətta səsi də titrəyirdi. Tez gəlib sobanın yanında qızınmağa başladı.

Artıq hava qaralırdı. Ağacların üzərində, evlərin dam örtüyündəki qar gözəl xalıya bənzəyirdi. Qar həm də ətrafı işıqlı göstərir, əsrarəngiz mənzərə yaradırdı.

Sobanın yanından çəkilmək istəməyən Mətin axşam yeməyini yeyib yatmağa hazırlaşırdı. Valideynləri birdən onun nə isə düşünüb qaşlarının çatıldığını gördülər. Babası, nənəsi, ata-anası onun bu halı ilə maraqlandılar.

Mətin isə düşündüklərini kövrək səslə əzizlərinə dedi:

– Çöldə soyuqdu, “şaxtababa” üşüyəcək, onu gətirək sobanın yanına. Mənim kimi o da qızınsın. Yoxsa soyuqdan xəstələnəcək...

Evdəkilər onun bu sözünə əvvəlcə xeyli güldülər. Sonra isə Mətini başa salmağa çalışdılar ki, qarı evə gətirmək olmaz, onu evə gətirən kimi əriyər, “şaxtababa” canlı deyil, o üşümür. Valideynləri nə qədər çalışsalar da, bir nəticəsi olmadı.

Mətin gecəyarısına kimi “şaxtababa”nı sobanın yanına gətirmək üçün yollar axtara-axtara yuxuya getdi.

Yenə gözəl bir qış səhəri... Hava tərtəmiz və bir qədər də mülayim. Qar və gecə şaxtanın yaratdığı buzlar yavaş-yavaş əriyib suya dönürdü. Artıq Mətinin sevimli “şaxtababa”sı da əriyib qurtarmışdı.

Mətin yuxudan oyanan kimi əl-üzünü yumadan pəncərədən həyətə boylandı görsün “şaxtababa”sı üşümür ki? “Şaxtababa”nın əriyib yox olduğunu bilən Mətin birdən var gücü ilə qışqırıb ağlamağa başladı. Sürətlə həyətə qaçdı. Ağlaya-ağlaya dedi:

– “Şaxtababa”ma soyuq oldu, o, xəstələndi. Evə aparıb sobanın yanına qoysaydım, xəstələnməzdi, əriməzdi!

Nə valideynləri, nə də həyətdəki dostları Mətini başa sala bilmirdilər ki, qarı evə aparmaq, sobada isitmək olmaz.

Onun bu şıltaqlığına həyətdəki dostları və valideynləri həm gülür, həm də baş verənləri anlatmağa çalışırdılar. Mətin isə kimsəyə məhəl qoymur, elə hey “şaxtababa”sının yoxluğuna təəssüflənirdi...

Balaca Mətin haqqındakı nağılımız burda bitdi.

Əziz balalar, göydən üç alma düşdü. Gəlin, üçünü də Mətinə verək ki, yeyib tez böyüsün. Anlasın ki, qar, buz istiliklə yola getməz. İsti soba onları bir göz qırpımında suya döndərər...

**Məryəm Əliyeva**
**Kürdəmir rayon MKS-nin baş biblioqrafı**

№89-90 (2155)
4 dekabr 2024
www.medeniyyet.az

# Avropadakı mədəniyyət mərkəzlərimizdə

## Vyanada Füzulinin yubileyi, Berlində caz konserti, Parisdə sərgi

Avstriyanın paytaxtı Vyanadakı Azərbaycan Mədəniyyət Mərkəzində (AMM) "Qəlbimdəki şair" ("Der Poet in mir") adlı ədəbi-musiqili tədbir keçirilib. Tədbir dahi Azərbaycan şairi Məhəmməd Füzulinin (1494–1556) 530 illiyinə həsr olunub.

AMM-in rəhbəri Leyla Qasımova çıxışında bildirib ki, Azərbaycan klassik poeziyasının mükəmməl nümunələrini yaradan Füzuli özündən sonra zəngin irs, ədəbi məktəb qoyub. Böyük bəstəkarımız Üzeyir Hacıbəyli müsəlman Şərqində ilk operanı Füzulinin "Leyli və Məcnun" poemasının əsasında yaradıb. L.Qasımova onu da diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə dahi şairin 530 illiyi Azərbaycanda və müxtəlif ölkələrdə qeyd edilir.






Sonra Tural İsmayılovun rəhbəri olduğu "Anima Şirvani" ansamblı konsert proqramı ilə çıxış edib. Konsertdə Azərbaycan muğamı və xalq mahnıları klassik alman və ingilis barokko musiqisi ilə vəhdətdə təqdim olunub, həmçinin Füzulinin şeirləri qiraət edilib.

***

Almaniyadakı səfirliyimizin təşkilatçılığı ilə Berlindəki AMM-də tanınmış caz musiqiçisi İsfar Sarabskinin rəhbərlik etdiyi kvartetin ifasında "Şimalda Xəzər küləyi: Azərbaycan cazı Berlində" adlı konsert proqramı keçirilib.

Səfir Nəsimi Ağayev Azərbaycanda caz musiqisinin inkişafı barədə qısa məlumat verib. Qeyd olunub ki, Azərbaycan cazı 1950-ci illərdə Bakıda – əsrlər boyu müxtəlif mədəniyyətlərin və adət-ənənələrin görüş yeri olmuş şəhərdə yaranmış füsunkar üslubdur. Vurğulanıb ki, İsfar Sarabski bu ənənəni uğurla davam etdirir, Azərbaycan muğamının mürəkkəb sədalarını cazın sonsuz imkanları ilə "toxuyaraq" bu musiqiyə yeni çalarlar qazandırır.

İsfar Sarabski və kvartetin üzvləri – Bəhruz Zeynal (tar), Makar Novikov (kontrabas) və Aleksandr Maşinin (zərb aləti) rəngarəng ifaları tamaşaçılara xoş ovqat yaşadıb, alqışlarla qarşılanıb.



***

Parisdəki AMM-də isə "Dayanıqlı baxış: daha yaşıl gələcək naminə incəsənət" adlı sərgi təşkil edilib.

Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayeva Prezident İlham Əliyevin sərəncamı ilə 2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan olunmasından danışıb. Bildirib ki, səfirliyin təşkil etdiyi sərginin də məqsədi Azərbaycanın davamlı gələcəyə sadiqliyini vurğulamaqdır. Təqdim olunan əsərlər Azərbaycanın zəngin mədəni irsindən və müxtəlif təbiət mənzərələrindən ilhamlanaraq yaradılıb.

Rəssamlar Xanlar Əsədullayev və Çinarə Bakşiyeva-Qafarova bildiriblər ki, sərgidəki əsərlər insanın təbiətlə harmoniya içində yaşamasının mümkünlüyünü və vacibliyini vurğulayır. İqlim dəyişikliyi bütün dünyaya təsir edən bir çağırışdır. Qeyd olunub ki, bu yaxınlarda Bakıda keçirilən COP29 da bu mübarizədə qlobal həmrəyliyin zəruriliyini xatırladır.

Sərgidə Xalq rəssamı Sakit Məmmədovun, eləcə də Xanlar Əsədullayev, Aqşi Kazımova, Nihad Ağazadə, Çinarə Bakşiyeva-Qafarova, Mahir Qafarov, Aynur Məmmədova və Məryəm Abdullanın əsərləri nümayiş olunub.

# Nizami Gəncəvinin "Xəmsə"sinin türkcə nəşri

## 2026-cı ildə başa çatacaq

Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin dünya ədəbiyyat xəzinəsinə bəxş etdiyi "Xəmsə" ("Beşlik") orijinaldan Türkiyə türkcəsinə tərcümə olunur. Prosesin 2026-cı ildə başa çatdırılması planlaşdırılır.




Bu barədə layihənin müəllifi, Atatürk Universitetinin (Ərzurum) Fars dili və ədəbiyyatı kafedrasının müdiri professor Nimet Yıldırım bildirib.

"Xəmsə"dən "İskəndərnamə" poemasını türk dilinə çevirən Nimet Yıldırımın sözlərinə görə, "Sirlər xəzinəsi"nin də tərcüməsi başa çatıb və kitab çap mərhələsindədir.

"Leyli və Məcnun" poemasının türk dilinə tərcüməsi 2025-ci ildə, qalan iki poema ("Xosrov və Şirin", "Yeddi gözəl") isə 2026-cı ilin birinci yarısında Türkiyə ictimaiyyətinə təqdim olunacaq.

Professor vurğulayıb ki, nizamişünasların əsas vəzifəsi Nizami irsini Türk dünyasında yaymaqdır. O, Nizamini fars şairi kimi təqdim etmək cəhdlərini kökündən səhv adlandırıb. "Əsərləri farsca olan böyük türk mütəfəkkiri Mövlanəni (Cəlaləddin Rumi – red.) də səhvən fars filosofu adlandırırlar, lakin bu, mahiyyəti dəyişmir: "Bizim üçün əsas odur ki, Türk dünyasında belə parlaq şəxsiyyətlər yaşayıb və yaradıblar. Nizami, Mövlanə və başqaları təkcə Azərbaycanın və ya Türkiyənin deyil, bütün Türk dünyasının qürur mənbəyidir".

# Melburnda Azərbaycan musiqisi səslənib

Avstraliyanın Melburn şəhərində Azərbaycan musiqi nümunələrindən ibarət konsert proqramı təqdim olunub.



Diasporla İş üzrə Dövlət Komitəsindən bildirilib ki, konsert "AYTAY" musiqi qrupunun rəhbəri Aslan Şərifi tərəfindən təşkil edilib. Tədbirdə soydaşlarımızla yanaşı, Melburnda yaşayan digər əcnəbilər, eləcə də yerli sakinlər iştirak ediblər.

Proqramda Emin Sabitoğlu, Cahangir Cahangirov, Tofiq Quliyev, Ramiz Mirişli kimi Azərbaycan bəstəkarlarının əsərləri səslənib, "AYTAY"ın rəqs qrupu tərəfindən milli rəqslərimiz nümayiş olunub. Konsert böyük müğənni Rəşid Behbudovun repertuarından "Azərbaycan" mahnısı (musiqi: Rauf Hacıyev; söz: Ənvər Əlibəyli) ilə yekunlaşıb.

# Avropa İttifaqının yeni rəhbəri

## Antonio Koşta ötən il korrupsiya ilə əlaqədar istefa vermişdi

Avropa İttifaqı Şurasının Prezidenti vəzifəsində belçikalı Şarl Mişeli portuqaliyalı Antonio Koşta əvəz edib. O, dekabrın 1-də vəzifəsinin icrasına başlayıb.



A.Koştanın bu vəzifəyə namizədliyi iyun ayında Avropa Parlamentinə seçkilərdən sonra Avropa İttifaqına üzv ölkələrin rəhbərləri tərəfindən razılaşdırılmışdı.

Brüsseldə Avropa İttifaqı Şurasının qərargahında keçirilən mərasimdəki çıxışında o, Avropa İttifaqı ölkələri və qurumları arasında daha sıx əməkdaşlığın və dialoqun önəmini vurğulayıb: "Biz ancaq birlikdə ümumi rifaha, iqtisadi inkişafa və iqlim transformasiyasına nail ola, Avropanın səsini beynəlxalq səviyyədə eşitdirə bilərik".

63 yaşlı A.Koşta 2015–2023-cü illərdə Portuqaliyanın Baş naziri olub. O, litium və "yaşıl" hidrogenlə bağlı bir sıra layihələrdə korrupsiya hallarına dair yayılan iddialarla əlaqədar açılan cinayət işinə görə ötən ilin iyulunda vəzifəsindən istefa vermişdi.

Avropa İttifaqının Xarici işlər və təhlükəsizlik siyasəti üzrə yeni Ali nümayəndəsi vəzifəsində isə ispaniyalı Cozep Boreli estoniyalı Kaja Kallas (2021–2024-cü illərdə Estoniyanın Baş naziri olub) əvəzləyib.

Avropa Komissiyasının (İttifaqın hökuməti) sədri Ursula fon der Lyayen isə daha 5 il bu vəzifədə qalacaq.

Qeyd edək ki, Avropa Komissiyasının tərkibi hər 5 ildən bir Avropa Parlamentinə seçkilərdən sonra yenilənir. Avropa Komissiyasının müxtəlif sahə və fəaliyyət istiqamətləri üzrə ümumilikdə 26 komissarı (naziri) var.

# Dünyanın ən yaxşı şəhəri

Böyük Britaniyanın paytaxtı London dalbadal onuncu dəfə "Resonance Consultancy" nəşri tərəfindən tərtib edilən "Dünyanın ən yaxşı şəhərləri" hesabatında birinci yeri tutub.

İllik qiymətləndirmə əhalisi 1 milyondan çox olan 100 şəhər üzrə üç əsas istiqaməti (yaşayış şəraiti, gözəllik və rifah) əhatə edən 24 amil əsasında aparılır.

Builki hesabatda qeyd olunur ki, Londonun "güclü ruhu və bənzərsiz qlobal cazibəsi" onun reytinqin zirvəsindəki yerini möhkəmləndirib.

Siyahıda ikinci olan Nyu-York iqtisadi gücü və mədəni dirçəlişi ilə fərqlənir. Hesabatda qeyd edilir ki, "rekord səviyyədə daşınmaz əmlak qiymətləri və həm ziyarətçilərin, həm də yeni sakinlərin axını ilə dəstəklənən yeni şoular, hotellər, mədəni məkanlar və transformativ inkişaflar qasırğası" bu şəhərin xüsusi cəhətləridir.

Hesabata görə, reytinqdə 3-cü olan Paris mədəni cazibəsini, inkişaf edən ekosistemini və möhkəm iqtisadiyyatını əks etdirən xüsusiyyəti ilə seçilir.

Dördüncü və beşinci yerlərdə qərarlaşan Tokio və Sinqapur qabaqcıl infrastruktur və innovasiyaları nümayiş etdirərək Asiyanın ən güclü şəhərləri kimi meydana çıxır

Sonrakı yerləri tutan Roma və Madrid tarix və müasirliyin vəhdəti ilə diqqəti cəlb edib. İlk onluğa Barselona, Berlin və Sidney də daxildir.

# Rabatdakı "Diplomatik Həmrəylik Bazarı"nda mədəni irsimizin təqdimatı

Azərbaycan Respublikasının Mərakeş Krallığındakı Səfirliyi Rabat Milli Kitabxanasında təşkil olunan "Diplomatik Həmrəylik Bazarı"nda iştirak edib.



Tədbirdə Azərbaycanın mədəni irsi, ənənəvi sənətkarlıq və milli mətbəx nümunələri təqdim olunub.

Kəlağayı, xalçalar, keramika nümunələri və suvenirlərin nümayiş olunduğu stendimiz ziyarətçilərin böyük marağına səbəb olub. Eyni zamanda, qonaqlar milli mətbəximizin təamlarından qutab, badambura və xüsusi olaraq hazırlanan "balkhoorma" – qurudulmuş xurmanın dadına baxıblar.

Qırxa yaxın ölkənin səfirliyinin qatıldığı tədbir mədəniyyətlərarası dialoqun və beynəlxalq həmrəyliyin təbliği məqsədi daşıyır. Mərakeş paytaxtında ənənəvi olaraq keçirilən "Diplomatik Həmrəylik Bazar"ı ölkələrin mədəni irsini tanıtması, qarşılıqlı anlaşma və dostluğun təşviqi məkanına çevrilib.

# Tarixdə bu gün

## Olaylar, faktlar (2 – 5 dekabr)



### Xronoqraf

**3 dekabr** Beynəlxalq Əlillər Günüdür. BMT Baş Assambleyasının 1992-ci il 14 oktyabr tarixli qətnaməsi ilə təsis olunub.

### 514 il əvvəl...

**2 dekabr 1510-cu ildə** Səfəvi qoşunları ilə Xorasanda hakim olan Şeybanilər (özbək) ordusu arasında Mərv döyüşü olub. Səfəvi qoşunları qalib gəliblər və Xorasan vilayəti Səfəvi imperatorluğunun tərkibinə qatılıb. Bununla Şah İsmayıl indiki İranın bütün ərazisini öz hakimiyyəti altına alıb.

### 216 il əvvəl...

**4 dekabr 1808-ci ildə** İspaniyanı işğal edən Fransa imperatoru Napoleon Bonapart ölkədəki inkvizisiya məhkəməsini ləğv edib. Avropada sonuncu inkvizisiya məhkəməsi İspaniyada qalmışdı. Roma Katolik Kilsəsinin tabeçiliyində olan və dinə qarşı çıxanları mühakimə edən inkvizisiyanın ləğvi Napoleonun Avropada nüfuzunu artırıb.

### 104 il əvvəl...



**2 dekabr 1920-ci ildə** Mustafa Kamalın rəhbərliyi altındakı Türkiyə qoşunları məğlubiyyətə uğratdığı daşnak Ermənistan Respublikasını Gümrüdə təslimçi sülh sazişi imzalamağa məcbur edib. Sazişlə erməni tərəf Sevr müqaviləsindən (10 avqust 1920-ci ildə Antanta ilə Osmanlı arasında bağlanan müqavilədə Qars vilayətinin Ermənistana verilməsi barədə müddəa da vardı) imtina edir, üstəlik, Gümrünü Türkiyəyə verməyə razılaşırdı. Lakin daşnaklar bu sazişi imzalayanda ölkəyə faktiki nəzarəti itirmişdilər, İrəvanda sovet hakimiyyəti (29 noyabr) qurulmuşdu. Sovet Ermənistanı Rusiyanın dəstəyini alaraq Gümrü sazişini rədd etdi. Bununla belə, 16 mart 1921-ci ildə Qars müqaviləsi ilə Türkiyəyə ərazi iddiasından vaz keçməli oldu.

### 71 il əvvəl...

**2 dekabr 1953-cü ildə** Fransanın müstəmləkəsi Laos müstəqilliyini elan edib. 1893-cü ildə Fransanın müstəmləkəsinə çevrilən Laos İkinci Dünya müharibəsində Yaponiyanın işğalı altına düşmüş, 1946-cı ildə Fransanın nəzarətinə keçmişdi.

### 53 il əvvəl...

**2 dekabr 1971-ci ildə** Ərəbistan yarımadasının şimal-şərqində yerləşən altı ərəb əmirliyinin vahid dövləti – Birləşmiş Ərəb Əmirlikləri yaradılıb. BƏƏ federativ dövlət quruluşuna malikdir, Abu-Dabi (ölkənin paytaxtı), Dubay və Şərca daha çox inkişaf etmiş əmirliklərdir.

### 16 il əvvəl...

**2-3 dekabr 2008-ci ildə** Bakıda Avropa Şurası ölkələri mədəniyyət nazirlərinin "Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarında davamlı inkişafın və sülhün əsasıdır" adlı konfransı keçirilib. Azərbaycan tərəfdən konfransa İslam ölkələri də dəvət olunub. İlk dəfə Avropa və müsəlman ölkələrinin mədəniyyət nazirləri bir araya gəliblər. Konfransda çıxış edən Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə mədəniyyətlərarası dialoq üzrə "Bakı Prosesi"nin əsası qoyulub.

### 12 il əvvəl...



**5 dekabr 2012-ci ildə** UNESCO Hökumətlərarası Komitəsinin Parisdə keçirilən 7-ci sessiyasında Azərbaycanın təqdim etdiyi "Tar alətinin hazırlanması və tar ifaçılıq sənəti" nominasiyası Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısına daxil edilib.

### 11 il əvvəl...

**3 dekabr 2013-cü ildə** UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin Bakıda keçirilən 8-ci sessiyasında Azərbaycanın təqdim etdiyi nominasiya – "Çövkən, Qarabağın ənənəvi atüstü oyunu" təşkilatın "Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs Siyahısı"na salınıb.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5086. **Sifariş:** 2833
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641